# HZ. YUSİF MƏDRƏSƏSİ

Yusif dedi: “Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur... Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir. Bu qədər dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 33-35)

**HARUN YƏHYA**

# MÜNDƏRİCAT


- YARADILIŞ HƏQİQƏTİ
- GİRİŞ: YUSİF MƏDRƏSƏSİ NƏDİR?
- ALLAHIN ELÇİLƏRİNDƏ GÖZƏL NÜMUNƏLƏR VARDIR
- HZ. YUSİFİN HƏYATI
- YUSİF MƏDRƏSƏSİNİN MÖMİNLƏR ÜÇÜN HİKMƏT VƏ FAYDALARI
- MÖMİNLƏRİN YUSİF MƏDRƏSƏSİNDƏKİ TƏHSİLİ
- MÖMİN YUSİF MƏDRƏSƏSİNDƏ HƏM ŞAGİRD HƏM DƏ MÜƏLLİMDİR
- YUSİF MƏDRƏSƏSİNDƏ ÖYRƏDƏN VƏ ÖYRƏDİLƏN İSLAM BÖYÜYÜ: BƏDİÜZZAMAN SƏİD NURSİ
- NƏTİCƏ
- TƏKAMÜL YALANI

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan

xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal,

serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və

qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ:
# HƏZRƏTİ YUSİF MƏDRƏSƏSİ NƏDİR?

**"... o (Yusif), zindanda bir neçə il də qaldı". (Yusif surəsi, 42)** ayəsinin xəbəri və sirri ilə Yusif əleyhissalam həbsxanaların piridir. Və həbsxana bir növ Mədrəsə-i Yusifiyə (Yusif mədrəsəsi) olar. [1]

Bu sözlər həyatı boyunca Quran əxlaqını insanlara izah edən və sadəcə bu səbəblə bəzi kütlələrin düşmənçiliyini qazanaraq günahsız yerə 30 ilini sürgündə və həbsxanalarda keçirmiş olan, XX əsrin ən böyük İslam alimlərindən Bədiüzzaman Səid Nursiyə aiddir.

Bədiüzzamanın bu sözündə həbsxananı Mədrəsə-i Yusifiyə adlandırması və bu kitabın adının "Hz. Yusif mədrəsəsi" olmasının səbəbi isə belədir: İnsanları yalnız Allaha qulluq etməyə və gözəl əxlaqlı olmağa çağıran səmimi müsəlmanlar üçün heç bir cinayətləri olmadığı halda bəzən yaşamaq məcburiyyətində buraxıldıqları həbsxanalar mənəvi baxımdan çox gözəl bir təhsil və nəfsi tərbiyə yeridir. Digər bir sözlə, möminlər üçün həbsxanalar mədrəsə hökmündədirlər.

Bu mədrəsələrin Yusif adıyla anılmalarının səbəbi isə, -Quranda bildirildiyi üzrə- Allaha imanı və gözəl əxlaqı ilə tanınan hz. Yusifin günahsız yerə həbs edilmiş olmasıdır. Hz. Yusif özünün günahsız olduğuna dair dəlillərin açıq-aşkar ortada olmasına baxmayaraq, Allahın dinini izah edən bir insan olduğu üçün böhtana uğramış, sonra həbsə atılmış və illərlə həbsdə qalmışdır. Bu hadisələr əsnasında başına hər gələnin Allahdan bir xeyir olduğunu bilmiş, həbsdə belə təbliğ vəzifəsinə davam edərək digər məhkumlara Allahın varlığını və gözəl əxlaqı izah etmiş, həbs həyatı boyunca heç vaxt şikayət etməmişdir. Məhz onun bu rəftarı, özündən sonra gələn bütün möminlərə də gözəl bir nümunə olmuşdur.

Hz. Yusifdən başqa İmam-ı Əzəm, İmam-ı Əhməd İbn Hanbəl və yaxın tariximizdən Bədiüzzaman Səid Nursi, Süleyman Hilmi Tunaxan və Gönenli Mehmet Əfəndi kimi Quran əxlaqını izah etmək üçün apardıqları mübarizə ilə tanınan səmimi müsəlmanlar Allahı və dini inkar edən, möminlərin səmimiyyətlərini təqdir edə bilməyən kəslər tərəfindən haqsız yerə günahlandırılıblar.

Bu qiymətli kəslər müxtəlif böhtanlara məruz qalmış, saxta dəlillərlə əleyhlərinə hiylələr qurulmuş və bu böhtanlardan ötrü də həbslə cəzalandırılmışlar. Bu qiymətli İslam böyükləri də eynilə hz. Yusif kimi başlarına gələn sıxıntı və çətinliyi özləri üçün bir nemət bilmiş və axirətdəki qarşılığını düşünərək sevinmişlər. Həbs həyatındakı çətinliklərin özləri üçün mənəvi bir təhsil, bir növ inzivaya çəkilmə olduğunu düşünərək həbsdə deyil, Mədrəsə-i Yusifiyədə olduqlarını qəbul etmişlər.

Ömrünün böyük bir hissəsini Mədrəsə-i Yusifiyədə keçirdiyi üçün bu kitabda qiymətli təfəkkürlərindən bir çox sitat gətirdiyimiz Bədiüzzaman Səid Nursi, Dənizli həbsxanasında yazdığı Meyvə Risaləsində həbsxananı bir mədrəsə olaraq gördüyünü belə ifadə edir:

"... Əvvəllər az bir xəyanətə və zorakılığa dözə bimədiyim halda; sizi and içərək inandırıram ki, axirətə imanın nuru və qüvvəti mənə elə bir səbir və dözüm, təsəlli və mətanət, bəlkə mücahidanə, qazanclı bir imtahan dərsində daha böyük bir mükafatı qazanmaq üçün bir şövq verdi ki, mən bu risalənin əvvəlində dediyim kimi, özümü Mədrəsə-i Yusifiyə ünvanına layiq gözəl və xeyirli mədrəsədə bilirəm". [2]

Saleh möminlər Quran əxlaqını yaşamaq və insanlar arasında da yaymaq istədikləri üçün dini inkar edənləri daima qarşılarına almışlar. Bu kəslərin tarix boyunca iman edən insanları ruhdan salmaq üçün əl atdıqları üsullardan biri onları böhtanlarla, haqsız ittihamlarla, saxta dəlil və yalançı şahidlərlə, tələlərlə xalq və ədalət qarşısında günahkar vəziyyətə salmaq və bunların nəticəsində isə həbsə salınmalarına nail olmaqdır.

İnkar edənlərin bu istiqamətdəki təxribatları və yaratdıqları hiddət nəticəsində həbslə cəzalandırılan möminlər hadisələri səthi qiymətləndirən bir adam üçün bir həbsxanadadır. Ancaq əslində eynilə inzivaya çəkilmiş bir zahid, illərlə mağaraya sığınaraq yaşayan Əshabı-Kəhf və ya günahsız olduğu halda illərlə həbsdə qalan hz. Yusif kimi özlərini mənəvi cəhətdən inkişaf etdirdikləri, Allaha daha çox yaxınlaşaraq elmdə dərinləşdikləri və bir çox istiqamətdən gücləndikləri bir "təhsil ocağın"dadırlar. Bu baxımdan baxıldıqda möminlərə zülm etmək, imanı xidmətlərinə mane olmaq istəyənlər onları həbsə ataraq əslində böyük bir xeyirə vəsilə olurlar.

# ALLAHIN ELÇİLƏRİNDƏ GÖZƏL NÜMUNƏLƏR VARDIR

Allah Quranda bir çox peyğəmbərin həyatındakı ən gözəl hekayələrdən xəbərlər verir. Allah Yusif surəsində bunu belə bildirir:

**Biz bu Quranı sənə vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Halbuki, sən bundan əvvəl xəbərsiz olanlardan idin. (Yusif surəsi, 3)**

Allah bir başqa ayəsində isə peyğəmbərlərin hekayələri üçün belə buyurur:

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Allahın bu ayəsində də bildirdiyi kimi, Quranda peyğəmbər hekayələrindən bəhs edilməsinin səbəbi insanların peyğəmbərlərin həyatlarına baxaraq ibrət almalarıdır. Quranın mahiyyətini qavraya bilməyən bir çox insan peyğəmbərlərin həyatlarını bir əfsanə ya da nağıl kimi görüb müxtəlif əlavələr edərək bir-birlərinə çatdırarlar. Ancaq peyğəmbərlərin həyatlarını, gözəl əxlaqlarını özlərinə nümunə götürməyi, onlar kimi davranmağı, onların yolunu izləməyi düşünməzlər. Peyğəmbərləri səthi qiymətləndirdikləri üçün onların Quran əxlaqını bütün dünyaya izah etmək mövzusunda göstərdikləri səmimi səyi, bütün həyatlarını, gecələrini və gündüzlərini bu əxlaqın yayılması üçün sərf etmələrini, Allaha olan dərin iman və bağlılıqlarını nümunə almazlar. Halbuki, Quranda hekayələri izah edilən peyğəmbərlərin hamısının həyatlarının hər dövründə möminlər üçün çox gözəl nümunələr vardır.

Məsələn, hz. Məhəmməd (s.ə.v)-in qövmünün öndə gələn inkarçılarıyla, müşriklərlə və münafiqlərlə olan mübarizəsi, hz. İbrahimin bütləri özlərinə ilah qəbul edən qövmünə qarşı mübarizəsi və onları bu inanclarından uzaqlaşdırmaq üçün istifadə etdiyi üsullar, hz. Musanın həm qövmünə qarşı zorakılıq edən, insanlara çox böyük zülmlər edən Firona, həm də anlayışı zəif olan qövmünə qarşı

cəsur və səbirli mübarizəsi, hz. Əyyubun özünə Allahdan bir sınaq olaraq verilən dərd və xəstəliyə qarşı səbri və Allaha olan təslimiyyəti, hz. Yusifin uşaqlığından etibarən davamlı özünə hiylələr qurulmasına baxmayaraq daim Allaha yönəlməsi möminlərin özlərini tərbiyə etmələri üçün bir nümunədir.

Saleh bir mömin gözəl əxlaqa dair hər şeyi Qurandakı hekayələrə baxaraq öyrənə bilər. Məsələn, Allaha iman edən, səmimi, dürüst, gözəl əxlaqlı bir insan olmasına və ətrafındakı insanları daima Quran əxlaqına dəvət etməsinə baxmayaraq, bəzi insanlar tərəfindən düşməncə bir rəftarla qarşılana bilər, böhtana uğraya bilər. Lakin gözəl əxlaqına və Allah yolunda göstərdiyi səmimi səyinə baxmayaraq niyə bu şəkildə haqsız bir rəftara məruz qaldığına heç bir zaman heyrətlənməz və ya bundan ötrü kədərlənməz. Çünki tarix boyu Quran əxlaqını yaşayan və insanları da bu üstün əxlaqa dəvət edən bütün səmimi insanların eyni rəftarlara məruz qaldıqlarını Qurandan öyrənmişdir. İman edənlərin Qurandan öyrəndiyi digər bir həqiqət isə, bu cür sıxıntı və çətinliklərlə qarşılaşan saleh möminlərin başlarına gələnlərə daim səbir etdikləri, bütün hadisələri təvəkkül və təslimiyyətlə qarşıladıqlarıdır.

Məsələn, hz. Məhəmməd (s.ə.v), müşriklər tərəfindən, yanındakı yoldaşıyla birlikdə Məkkədən çıxarılarkən bir mağaraya sığınmış və yoldaşına **"... "Qəm yemə, Allah bizimlədir!" ..." (Tövbə surəsi, 40)** deyərək təvəkkülünü və təslimiyyətini göstərmişdir. Bu səbəbdən eyni vəziyyətdə olan bir mömin də Peyğəmbərimiz (s.ə.v) kimi təvəkküllü davranmalı və Allahın özüylə birlikdə olduğunu unutmamalıdır.

Hz. Şueyb isə qövmünü Allaha iman etməyə çağırmış və onları Allahın əzabına qarşı xəbərdar etmişdir. Ancaq qövmünün "təkəbbürlü və söz anlamayan" öndə gələnləri hz. Şueybə onu və yanındakıları təhdid edərək cavab vermişlər. Quranda hz. Şueyb ilə qövmünün əyanları arasındakı bir danışıq belə xəbər verilir:

**Onun qövmünün təkəbbürlü zadəganları dedilər: "Ey Şueyb! Ya biz hökmən səni də, səninlə birlikdə iman gətirənləri də yurdumuzdan çıxaracaq, ya da siz bizim dinimizə dönəcəksiniz". Şueyb dedi: "Hətta nifrət etmiş olsaq belə?" Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz yenə də ona qayıtsaq, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməyincə bizim ona dönməyimiz olacaq bir şey deyildir. Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Axı Sən hökm verənlərin ən yaxşısısan. (Əraf surəsi, 88-89)**

Hz. Şüeybin qövmünün bu təhdidlərinə və təcavüzkarlığına baxmayaraq göstərdiyi qətiyyət möminlərin peyğəmbərlərdən öyrənməli olduqları digər bir mömin xüsusiyyətidir. Hz. Şüeybin qövmü isə, tarix boyunca Allahın dinini inkar edən bütün insanlarda görülən bir rəftar içindədir. Buna görə də bütün bunları

Qurandan öyrənən bir mömin ətrafındakı inkarçıların təcavüzkar hərəkətlərindən, böhtanlarından və hədələrindən ötrü əsla heyrətlənməz, ən kiçik bir kədər hiss etməz.

Hz. İbrahim də inkarçılarla apardığı mübarizədəki qərarlı rəftarıyla Quranda nümunə olaraq göstərilmişdir. Hz. İbrahim qövmünün bütlərə ibadət etməsinə mane olmaq üçün onlara Allahın varlığını və birliyini izah etmiş, ibadət etdikləri bütlərin heç bir şeyə güc çatmayan, taxtadan oyulmuş varlıqlar olduqlarını göstərmişdir. Qövmünün hz. İbrahimə verdiyi cavab isə, onu oda atıb yandırmağa cəhd etmək olmuşdur:

**Onlar dedilər: "Bundan ötrü bir bina tikin və onu orada odlayın!" Onlar İbrahimə hiylə qurmaq istədilər, Biz də onları rüsvay etdik. (Saffat surəsi, 97-98)**

Hz. İbrahimin bu hücumlara verdiyi cavab isə belədir:

**O dedi: "Mən Rəbbimə doğru gedirəm. O məni doğru yola yönəldəcəkdir". (Saffat surəsi, 99)**

Quranda bəhs olunan peyğəmbər hekayələrindən öyrəndiyimizə görə yaşadıqları cəmiyyətləri Allahın dininə və gözəl əxlaqa çağıran elçilər və saleh möminlər daim o cəmiyyətin dinə qarşı çıxan öndə gələnləri ilə qarşı-qarşıya gəlmişlər. Möminlərin insanları yaxşılığa və gözəlliyə çağırmalarına baxmayaraq, bu kütlə tarix boyunca möminlərə, xüsusilə də elçilərə düşmən olmuş, onları təsirsiz hala gətirməyə çalışmışdır. İnananların etdikləri xeyirlərə mane olmaq, Allahın dinini və gözəl əxlaqı izah etmələrinin qarşısını almaq üçün istifadə etdikləri üsullar isə əsrlərdir heç dəyişməmişdir. Bu mübarək insanlara "dəlilik", "azğınlıq", "mənfəətpərəstlik" kimi görülməyən iftiralarını ataraq, onları xalqın gözündə hörmətdən salmağa çalışmışlar, onları yurdlarından sürgün etməklə və ya ölümlə təhdid etmişlər, hiylə quraraq, təzyiq altına alaraq və ya həbsə ataraq işlərinə mane olmağa çalışmışlar. Bu dairələrin saleh möminlərə qarşı apardıqları bu haqsız mübarizədə istifadə etdikləri üsulları və müxtəlif böhtanları bildirən ayələrdən bəziləri belədir:

**Onlar dedilər: "Özümüzdən olan bir adamamı tabe olacağıq? Onda biz azğınlığa düşər və ağılsız iş görmüş olarıq! Zikr aramızdan təkcə onamı verildi? Xeyr, o, yalançıdır, lovğadır!" (Qamər surəsi, 24-25)**

**Şəhərdə doqquz adam var idi ki, bunlar yer üzündə fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər. Onlar dedilər: "Bir-birinizin yanında Allaha and için ki, gecə ona və ailəsinə basqın edib öldürəcək, sonra da onun yaxın qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik". Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. (Nəml surəsi, 48-50)**

**Onlardan əvvəl Nuh qövmü elçiləri yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" - dedilər və ona hədə-qorxu gəldilər. (Qamər surəsi, 9)**

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

İnkar edənlər elçilərin və saleh möminlərin Allahın dinini izah etmələrinin və insanları axirət gününə qarşı xəbərdar etmələrinin qarşısını almaq üçünsə həbslə cəzalandırma üsulundan tez-tez istifadə etmişlər. Həbs etməkdə əsas məqsəd iman edənlərin digər insanlarla görüşmələrinə mane olmaq və bütün fəaliyyətlərinin qarşısını almaqdır. Bəhsi keçən inkarçı kütlələrin atdıqları böhtanlar və etdikləri təxribatlar nəticəsində saleh möminlər xalqa səhv tanıdılmış və bunun nəticəsində də hər hansı bir cinayətlərinin olmamasına baxmayaraq həbsə atılmışlar. Ancaq burada bir məqam xüsusilə vurğulanmalıdır: İnkarçıların öndə gələnləri möminlərə qarşı günahlandırma fəaliyyəti içinə girərlər, əllərindəki imkanları möminləri aradan qaldırmaq üçün istifadə edərlər və bu şəkildə möminləri digər insanlara səhv tanıdarlar. Həbs isə bu səhv tanıtmağın və ya bəhsi keçən kütlələrin iftiraları və intriqalarının nəticəsidir. Quranda heç bir günahı olmadığı halda böhtana uğrayaraq həbsə atıldığı və illərcə həbsdə qaldığı bildirilən peyğəmbər hz. Yusifdir. Hz. Musa isə Firon tərəfindən həbsə atılmaqla təhdid edilmişdir. Hz. Musa Firona Allahın varlığını izah etmiş və belə demişdir:

**Musa dedi: "Əgər anlayırsınızsa, bilin ki, O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!" (Şuəra surəsi, 28)**

Fironun hz. Musaya verdiyi cavab isə belə olmuşdur:

**Firon dedi: “Əgər məndən başqasına sitayiş etsən, səni məhbusların yanına ataram!” (Şuəra surəsi, 29)**

Diqqət yetirilsə, Fironun hz. Musanı həbsə atmaqla təhdid etməsinin səbəbi hz. Musanın Allaha iman etməsi və Fironun ilahlığını qəbul etməməsidir, yəni əslində ortada həbsə atılmaq üçün bir cinayət yoxdur.

Sonrakı səhifələrdə daha ətraflı şəkildə görəcəyimiz kimi, hz. Yusifin də həbsə atılmasına səbəb ola biləcək bir günahı yoxdur. Ona böhtan atılmışdır və hər kəsin hz. Yusifin günahsız olduğunu görməsinə baxmayaraq, onun həbs edilməsinə qərar verilmiş və bunun nəticəsində illərlə həbsdə qalmışdır. Bu səbəblə hz. Yusifdən sonra tarix boyunca inkar edənlərin böhtanlarına məruz qalan, onların haqsız hücumları nəticəsində həbsə atılan saleh möminlər buna görə qətiyyən kədərlənməmişdir. Hətta “Hz. Yusif mədrəsəsində” olmağın, orada bir çox istiqamətdən təlim keçərək “dərəcə” almağın sevincini və rahatlığını yaşamışlar.

Bu kitabın mövzusu da inkar edənlərin təxribatları və böhtanları nəticəsində həbslə cəzalandırılan möminlər üçün həbsxananın əslində Allahın onları Rəbb sifətiylə öyrətdiyi təhsil yeri olduğudur. Hadisələrə səthi bir şəkildə baxan bir gözə görə, Allah yolunda olduqları üçün həbsə atılanlar cəza almış kimidirlər. Halbuki əslində onlar hz. Yusif Mədrəsəsində təhsil alır, mənəvi və elmi olaraq dərinləşirlər. Unudulmamalıdır ki, bu çətinliklər iman edənlərin cənnətdəki dərəcələrinin artmasına vəsilə olan gözəlliklərdəndir.

# HZ. YUSİFİN HƏYATI

Əvvəlki hissədə də bildirildiyi kimi, elçilər hər rəftar və davranışlarında Allaha yönələn çox qiymətli insanlardır. Hər biri səmimiyyətləri, dürüstlükləri, mətanətləri, təvəkkülləri, səbir və qətiyyətləri inananlar üçün çox gözəl bir nümunədir. Hz. Yusif də bu xüsusiyyətlərə sahib peyğəmbərlərdən biridir. Başına gələn hər cür çətinlik və sıxıntı qarşısında göstərdiyi üstün əxlaqıyla, hz. Yusifin həyatında bütün inananlar üçün çox qiymətli hikmətlər, hissələr və nümunələr vardır.

## Hz. Yusifə qurulan hiylə və "Şər İttifaqı"

Quranın 12-ci surəsi olan Yusif surəsində hz. Yusifin uşaqlığından başlayaraq həyatından bəhs edilir. Hz. Yusif uşaqlığından etibarən bir çox çətinliklə qarşılaşmış, ancaq səbri və təvəkkülü ilə daim insanlara nümunə olmuşdur. Bu surədə ilk olaraq hz. Yusifin gördüyü bir yuxu xəbər verilir:

**Bir zaman Yusif atasına dedi: "Atacan! Mən yuxuda on bir ulduz, günəş və ay gördüm. Onların mənə baş əydiyini də gördüm". (Yusif surəsi, 4)**

Hz. Yusifin atası hz. Yaqub isə oğlunun bu yuxusunu şərh edərək belə demişdir:

**Beləcə, Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin Biləndir, Müdrikdir". (Yusif surəsi, 6)**

Quranda hz. Yusifin ailəsi haqqında verilən çox əhəmiyyətli bir məlumat qardaşlarının ona olan düşmənçilikləridir. Hz. Yusifin gözəl əxlaqının, səmimiyyətinin və imanının fərqində olan və ona qarşı çox böyük bir qısqanclıq duyan qardaşlarının, ona bir pislik edə biləcəklərinin bilən hz. Yaqub hz. Yusifi qardaşlarına qarşı belə xəbərdar etmişdir:

**O dedi: "Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (Yusif surəsi, 5)**

Duyduqları şiddətli qısqanclıq səbəbiylə hz. Yusifi öldürməyə qərar verən qardaşlarının aralarındakı söhbətlərdə diqqəti çəkən isə etdikləri çox əhatəli plandır. Özlərini "bir-birlərini gücləndirən bir dəstə" olaraq adlandırmış, yəni bir ittifaq meydana gətirmişlər və bir çox xüsusu düşünüb, birlikdə hz. Yusifə bir hiylə qurmuşlar. Aralarında keçən söhbətlər Quranda belə bildirilir:

**Sözsüz ki, Yusif və onun qardaşlarının hekayətində soruşanlar üçün ibrətlər vardır. Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusif və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir. Yusifi ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız". Onlardan biri dedi: "Yusifi öldürməyin! Əgər ona qarşı hökmən nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardan biri onu götürsün!" (Yusif surəsi, 7-10)**

Ayənin əvvəlində hz. Yusif və onun qardaşlarının ibrətlər olduğu bildirilir. Elə isə hər mömin bu mövzu ilə əlaqədar ayələri oxuyarkən ibrət almalı, hikmətləri görə bilməli, bu ayələrdən nəticə çıxararaq öz həyatında bunları nəzərə almalıdır. Məsələn, qardaşları, hz. Yaqubun hz. Yusifə olan sevgisini qısqanmış və hətta bu qısqanclıqları qardaşlarını öldürməyi düşünə biləcək qədər güclü olmuşdur. Həmçinin diqqət edilsə, hz. Yusifin qardaşları saleh bir mömin əleyhinə hiylə qurmaq üçün bir "şər ittifaqı" meydana gətirmiş və güclərini birləşdirmişlər. Hiylələrinin məqsədi isə möminləri, yəni hz. Yusif ilə hz. Yaqubu ayırmaq və onda bəzi üstün xüsusiyyətlər olduğunu anladıqları qardaşlarını öldürməkdir.

İnkar edənlərin saleh möminlər əleyhinə bir yerə gələrək etdikləri əməkdaşlıq tarix boyunca tez-tez təkrarlanmışdır. Hər dövrdə pis olanlar birləşərək yaxşılara zərər vermək, onların xeyir üçün etdikləri işlərinə mane olmaq, onları yurdlarından çıxartmaq və hətta öldürmək üçün ittifaqlar qurmuşlar. Ancaq Allah hər dəfə onların hiyləsini pozmuş, ittifaqlarını da darmadağın etmişdir. Hz. Yaqub ilə hz. Yusifin birlik içində hərəkət etmələri və hz. Yaqubun oğullarının bu şər ittifaqına qarşı hz. Yusifi xəbərdar edərək dəstək olması bu mövzuda çox gözəl bir nümunədir.

# Şər İttifaqının hazırladığı saxta dəlillər

Ayələrin davamında qardaşlarının qurduqları plana uyğun hz. Yusifi quyuya atmağa qərar verdikləri bildirilir. Bu planlarını həyata keçirə bilmək üçün də hz. Yusifi oyun oynamağa aparmaq üçün atalarından çətinliklə icazə alırlar. Getdikləri yerdə hz. Yusifi quyuya atırlar. Hz. Yusif quyuya atılmaq üzrəykən Allah ona belə vəhy etmişdir:

**Qardaşları onu aparıb quyuya atmaq qərarına gəldikdə biz ona belə vəhy etdik: "Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən". (Yusif surəsi, 15)**

Hz. Yusifi quyuya atdıqdan sonra evə qayıdan qardaşları baş verənləri atalarına bu şəkildə danışırlar:

**Dedilər: "Ey atamız! Biz Yusifi əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən". Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. Yaqub dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır". (Yusif surəsi, 17-18)**

Allah bu ayələri ilə hz. Yusifin qardaşlarının pislik etmədiklərinə atalarını inandıra bilmək üçün hər cür xırdalığı düşünüb saxta dəlil belə hazırladıqlarına diqqət çəkmişdir. Münafiqlər və inkar edənlər də bir müsəlmana hiylə qurduqları vaxt yalandan, böhtandan heç çəkinməz, saxta dəlil hazırlamağı da əsla unutmazlar. Yusifin qardaşlarının da bu saxta dəlili hazırlamaqda məqsədləri atalarını doğru söylədiklərinə inandırmaqdır. Ancaq hz. Yaqubun rəftarından da aydın olduğu kimi, möminlər inkarçıların hiylələrini dərhal hiss edər və saxta dəlillərə əsla etimad etməzlər. İnkar edənlərin möminlər əleyhinə uydurduqları yalanlara yalnız özləri kimi inkar edənlər inanarlar.

# Hz. Yusif mədrəsəsinə giriş

Hz. Yusif quyuya atıldıqdan sonra bir ticarət karvanı onu tapar və az bir məbləğə misirli Əzizə satar. Allah bu hadisələrin nəticəsində hz. Yusifi Misirə yerləşdirdiyini və ona "sözlərin yozumunu" öyrətdiyini, yetkinlik yaşına gəldikdə isə ona hökm və elm verdiyini bildirir. (Yusif surəsi, 21-22)

Hz. Yusifin həbsə atılmasına səbəb olan hadisə isə, evində qaldığı misirli Əzizin arvadının özündən murad almaq istəməsiylə başlamışdır. Hz. Yusifin qadına verdiyi cavab isə belə olmuşdur:

**Evində qaldığı qadın onu yoldan çıxartmaq istədi və qapıları bağlayıb: "Yanıma gəl!" - dedi. O isə: "Allah uzaq eləsin! Axı sənin ərin mənim ağamdır, mənə yaxşı baxmışdır. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!" - dedi. (Yusif surəsi, 23)**

Hz. Yusif bu sözlərindən sonra qapıya doğru yönələrək çıxmaq istəmiş, ancaq qadın müqavimət göstərərək hz. Yusifin köynəyini arxasından cırmış və tam o əsnada qadının əri gəlmişdir. Qadın isə heç tərəddüd etmədən **"... Sənin ailənə pislik etmək istəyənin cəzası, zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!" (Yusif surəsi, 25)** deyərək hz. Yusifə böhtan atmış və zindana atılmalı olduğunu söyləyərək ətrafındakı insanları hz. Yusifə qarşı qaldıraraq bir rəftar sergiləmişdir. Bu çirkin böhtan qarşısında isə hz. Yusif özünün günahsız olduğunu və heç bir günahının olmadığını ifadə edərək belə demişdir:

**Yusif dedi: "O məni yoldan çıxartmaq istəyirdi". (Yusif surəsi, 26)**

Bundan sonra qadının yaxınlarından biri şahidlik edərək belə demişdir:

**... Qadının ailəsindən olan bir şahid belə şahidlik etdi: "Əgər onun köynəyi öndən cırılıbsa, qadın doğru deyir, o isə yalançılardandır. Yox əgər onun köynəyi arxadan cırılıbsa, qadın yalan deyir, o isə doğru danışanlardandır". (Yusif surəsi, 26-27)**

Göründüyü kimi hz. Yusifin günahsız olduğuna dair dəlillər də mövcuddur; hətta böhtan atan qadının əri də bu dəlilləri görmüş və vəziyyəti anlayaraq belə demişdir:

**Qadının əri onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: "Şübhəsiz ki, bu sizin qadın hiylələrinizdəndir. Həqiqətən də, sizin hiyləniz böyükdür. Yusuf, sən bundan (bu işi açıb danışmaqdan) vaz keç! Sən də ey arvad, günahına görə bağışlanma dilə. Çünki sən, günah işlətmisən". (Yusif surəsi, 28-29)**

Ayələrdə bildirildiyinə görə hz. Yusifin günahsızlığına hər kəs, şəhərdəki qadınlar belə şahiddir. Lakin buna baxmayaraq hz. Yusif iffətli olduğu və onların çağırdıqları həyatı yaşamaq istəmədiyi üçün zindana atılmışdır. Hətta vəzirin arvadı bunu digər qadınlara açıqca söyləmişdir. Demək olar bütün bir şəhər xalqı hz. Yusifin günahsız olmasına baxmayaraq həbsə atıldığını bilir:

**Qadın dedi: "Barəsində məni qınadığınız oğlan bax budur! Mən onu yoldan çıxartmağa çalışdım, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır". (Yusif surəsi, 32)**

Digər bir ayədə isə bu vəziyyət belə izah olunur:

**Bu qədər dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 35)**

Ayələrdə hz. Yusifin heç bir günahının olmadığına hər kəsin şahid olduğu, lakin buna baxmayaraq həbsə atmaq qərarının alındığı bildirilir. Hz. Yusifin təqsirsizliyini bilmələrinə və buna aid dəlillər olmasına baxmayaraq, onu həbslə cəzalandırmalarının səbəbi əslində, onun Allaha olan imanı və könüldən bağlılığıdır. Hz. Yusif imanından və gözəl əxlaqından ötrü necə qardaşlarının qısqanclığını və düşmənçiliyini qazandısa, yaşadığı mühitdəki bəzi kəslərin də eyni səbəblərlə düşmənçiliyini qazanmışdır. Bütün bu haqsız ittihamların, böhtanların, cəzalandırmaların qarşısında hz. Yusifin göstərdiyi üstün əxlaq, təvəkkül və qətiyyət isə Quranda belə bildirilir:

**Yusif dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən mən onlara meyl edər və cahillərdən olaram". Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir. (Yusif surəsi, 33-34)**

Tarix boyunca Allah yolunda olmasına baxmayaraq haqsız böhtanlar nəticəsində həbsə atılan və ya müxtəlif çətinliklərlə qarşılaşan möminlər daim hz. Yusifin bu gözəl rəftarını nümunə alaraq, üstün əxlaqlarından əsla güzəştə getməyəcəklərini göstərmişlər. İnkarçıların bir növ əziyyət və cəza olaraq gördükləri həbsi saleh möminlər zövq və sevinc ilə qarşılamışlar. Allahın razılığını qazanmaq üçün səy göstərərkən qarşılaşdıqları bütün çətinliklər, sıxıntı və məşəqqətlər onların şövqlərini və həyəcanlarını artırmışdır.

# Hz. Yusifin həbsxana günləri

Hz. Yusif həbsxanada qaldığı müddət ərzində də səbri, təvəkkülü, ağlı və mətinliyi ilə çox üstün bir əxlaq göstərmişdir. Həbsxanadakı yoldaşlarına Allahın varlığını və təkliyini izah etmiş, Allahdan başqa tanrıya tapınmamaları üçün onları xəbərdar etmişdir. Həmçinin Allahın özünə bir lütf olaraq verdiyi yuxuları yozmaq elmindən istifadə edərək həbsxana yoldaşlarının yuxularını yozmuşdur. Ancaq yuxuları yozarkən də mütləq onlara Allahı xatırlatmışdır.

Hz. Yusifin həbsxanadan çıxması isə gözlənilməz bir şəkildə olmuşdur. Elmi və etibarlılığı həbsdən çıxan yoldaşı vasitəçiliyi ilə Misir hökmdarına qədər çatmışdır. Ona böhtan atanlar etiraf etdikdə isə günahsızlığı qəti olaraq aydın olmuş və ardından Misirin xəzinələri ona tapşırılmışdır. Ayələrdə bu hadisə belə xəbər verilir:

**Padşah dedi: “Onu yanıma gətirin! Onu özümə yaxın adam edəcəyəm”. Onunla söhbət etdikdə: “Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan” – dedi. Yusif dedi: “Bu yerin xəzinələrini qorumağı mənə tapşır. Çünki mən qoruyanam, bu işi bilənəm”. Beləliklə, Yusifə yer üzündə hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi. Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik. İman gətirənlər və müttəqi olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir. (Yusif surəsi, 54-57)**

Bu ayələrdə də göründüyü kimi bütün çətinliklərdən, sıxıntılardan, inkarçıların əziyyətlərindən sonra Allah inanan qullarını gözəl bir həyata qovuşdurur. Bu, həm dünya həyatındakı bir güc və zənginlik, həm də sonsuz axirət yurdundakı cənnət nemətləri ola bilər. Hz. Yusif də yaşadığı bütün çətinliklərdən sonra həm dünyada,

həm də axirətdə çox gözəl nemətlərlə qarşılıq görmüşdür. Allah möminləri bu mövzuda belə müjdələyir:

**Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

**Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)**

Hz. Yusifin həyatı Quranda Allahın bu vədinin mütləq reallaşdığını göstərən nümunələrdən biridir. Hz. Yusif əvvəl çətinlik və əziyyətlərlə, xəyanət və böhtanlarla qarşılaşmış, ardından bir növ "mədrəsə" olan həbsxanada dərin bir mənəvi təhsildən keçmişdir. Nəticədə də Allahın vədi ilə qarşılaşmış və Allah onu bütün böhtanlardan təmizləmiş, yer üzündə üstün mövqe sahibi etmiş, mal-dövlət və elm baxımından gücləndirmişdir.

# YUSİF MƏDRƏSƏSİNİN MÖMİNLƏR ÜÇÜN HİKMƏT VƏ FAYDALARI

Bu kitabın davamında həbsxana sözü yerinə ümumiyyətlə hz. Yusif Mədrəsəsi ifadəsindən istifadə ediləcək. Çünki daha əvvəl də bəhs etdiyimiz kimi möminin həbs edilməsi bir cəza deyil, onun üçün bir təhsildir. Həbsxana mömin üçün "tərbiyə evi", mənəviyyatını qüvvətləndirdiyi "universitet" hökmündədir. Zəif imanlı və ya imansız kəslər həbsxananın inanclı kəslər tərəfindən niyə cəza və dözülməz bir müsibət olaraq görülmədiyini anlaya bilməzlər. Hətta möminlərin belə bir vəziyyətlə qarşılaşdıqlarında, axirətləri üçün duyduqları böyük sevincin səbəbini qavramaları isə qətiyyən mümkün deyil. Mömin əlbəttə ki, həbsdə olmağı istəməz, belə bir məqsəd üçün səy göstərməz. Ancaq belə bir vəziyyətlə qarşılaşdığında, hz. Yusif Mədrəsəsində alacağı dərəcənin mənəvi həyəcanını, zövqünü və həzzini yaşayar. Başına gələn kiçik-böyük hər hadisədə olduğu kimi, bunda da Allahın yaratdığı hikmətləri, xeyir və faydaları görər.

Möminlərin Allahın razılığını qazanmaq üçün səy göstərərkən düşdükləri həbsxana mühitini hz. Yusif Mədrəsəsi olaraq adlandırmaqlarının səbəbi, onların hər şeydə bir xeyir və fayda olduğuna inanmalarıdır. Onlar bilirlər ki, Allah bir mömin üçün hər nə istəsə, o ən xeyirlisi və ən gözəlidir. Hadisələri kənardan izləyən bir adam bir möminin həbsxanaya düşməsinə zəncirvari bir çox hadisənin səbəb olduğunu zənn edə bilər. Halbuki dərindən düşündükdə və bütün hadisələr Qurana görə qiymətləndirildikdə həqiqətlər tam fərqlidir. Bir möminin həbsə düşməsi, həbsdə qaldığı müddət və çıxdığı an ancaq Allahın diləməsi ilə həyata keçir. Heç bir hadisə və ya heç bir şəxs Allahın diləməsi xaricində bir insanın həbsə düşməsinə səbəb ola bilməz. İnsan ancaq qədərində olduğu üçün belə bir vəziyyətlə qarşılaşar. Əgər Allah bir müsəlmanın həbsdə olmasını istəyirsə, demək ki, bu adam üçün orada keçirdiyi günlərdə bir çox fayda və xeyirlər var. Ancaq bu, dərin bir qavrayışa və güclü bir imana sahib bir insanın görə biləcəyi bir həqiqətdir.

Bədiüzzaman Səid Nursi bu mövzuda bütün həyatı boyunca nümunə olmuş mübarək bir insandır. Hz. Yusif Mədrəsəsinə hər girişində orada mövcudluğunun xeyir və hikmətlərini düşünmüş, bunları da bütün inananlarla paylaşmışdır. Həbsxanadan yazdığı məktublarla şagirdlərinə çox qiymətli tövsiyələr vermiş, bu dövr ərzində qələmə almağı davam etdirdiyi Risalə-i Nur adıyla tanınan əsərləriylə də insanlara bir-birindən hikmətli təfəkkürlərini çatdırmışdır. Hər yazısında bu hadisələrin özləri üçün çox xeyirli olduğunu, bir çox faydanı özü ilə gətirdiyini və baş verən hər hadisəyə iman və təvəkkül gözüylə baxılmalı olduğunu xatırlatmışdır. Xüsusilə də yaşının çox irəlilədiyi dövrlərdə, bütün xəstəliklərinə baxmayaraq, qışın

ən şiddətli günlərində soyuq və sobasız hücrələrdə saxlanılan, hətta bəzən təcrid edilərək insanlarla görüşməsi belə qadağan edilən Səid Nursi ən ağır şərtlərdə də hər şeyin qədərdə olduğunu və təslimiyyətlə qarşılanmalı olduğunu bir məktubunda belə dilə gətirmişdir:

"Sonra bu sırada, bu soyuqda, ən çox istirahətə və üşüməməyə və dünyanı düşünməməyə möhtac olduğum bir zamanda, qərəzi və qəsdi hiss edər bir tərzdə, məni təhəmmülün üzərində bu sürgün və təcrid və həbs və çətinliyə sövq edənlərə, fövqəladə qəzəblənmək gəldi. Bir kömək imdada yetişdi. Mənəvi cəhətdən ürəyə xəbərdarlıq edildi ki: "İnsanların sənə etdikləri ayn-ı zülmlərində, ayn-ı ədalət olan qədər-i İlahinin böyük bir hissəsi var və bu həbsdə yeyəcək ruzin var. O ruzin səni bura çağırdı. Ona qarşı razılıq və təslim ilə qarşılıq vermək lazımdır. Hikmət və Rəbbin rəhmətinin belə böyük bir hissəsi var ki, bu həbsdəkiləri nurlandırmaq və təsəlli vermək və sizə savab qazandırmaqdır. Bu hissəyə qarşı, səbir içində minlərlə şükür etmək lazımdır ... "[3]

Bədiüzzamanın sözlərində ifadə etdiyi kimi, hz. Yusif Mədrəsəsində olanlar qədərlərində olduğu üçün oradadırlar və bu səbəblə hadisələrə təslimiyyətlə, səbir və şükürlə qarşılıq verməlidirlər. Həmçinin həbsxana imtahanıyla qarşılaşan hər saleh müsəlman Bədiüzzaman kimi orada olmasının xeyir və hikmətlərini tapıb üzə çıxarmalıdır ki, bu cür qiymətli bir mənəvi təhsil dövrünün haqqını versin. Bədiüzzaman başqa bir sözündə isə hz. Yusif Mədrəsəsinin bağçasında həm yaxşıların, həm də pislərin olduğunu, ancaq möminlərin yalnız yaxşıları görüb pisləri isə görməzlikdən gələrək, zehinlərini bu tip mövzularla gərəksiz yerə məşğul etməməli olduqlarını xatırlatmışdır:

"Saniyən:" Qədərə iman edən qəm və hüzndən əmin olur" sirri ilə, "Hər şeyin gözəl cəhətinə baxın" qaidəsinin sirri ilə, çox qısa bir məalı: "Sözləri dinləyib ən gözəlinə tabe" olub pisliyə baxmayanlar İlahi hidayətə qovuşmuş ağıl sahibi onlardır" məalında. Bizlər üçün indi hər şeyin yaxşı tərəfinə və gözəl cəhətinə və fərah verəcək istiqamətinə baxmaq lazımdır ki, mənasız, lazımsız, zərərli, sıxıntılı, çirkin, müvəqqəti hallar nəzər-i diqqətimizi çəkib ürəyimizi məşğul etməsin. Səkkizinci Sözdə bir bağçaya iki adam, biri çıxar biri girir. Bəxtiyarı bağçadakı çiçəklərə, gözəl şeylərə baxar, səfa ilə istirahət edər. Digər bədbəxt, təmizləmək əlindən gəlmədiyi halda çirkin, pis şeylərə diqqətini verər, mədəsini bulandırar. İstirahətə qarşılıq çətinlik çəkər, çıxar gedər. İndi cəmiyyət həyatı insanlığın mərhələlərində, xüsusilə Yusifiyyə Mədrəsəsi bir bağça hökmündədir. Həm çirkin, həm gözəl, həm kədərli, həm rahat şeylər birlikdə tapılar. Ağıl odur ki; rahat və gözəl şeylərlə məşğul olub, çirkin, sıxıntılı şeylərə əhəmiyyət verməz, şikayət və maraq yerinə şükür edər, sevinər." [4]

Bədiüzzamanın da ifadə etdiyi kimi, Allahın yaratdığı hadisələrdəki faydaları, xeyirləri görənlər dünyada və axirətdə sevinc içində, rahat və hüzurlu yaşayarlar. Onlara heç bir pis adam zərər verə bilməz, heç bir pislik kədərlənmələrinə səbəb ola

bilməz. Allaha iman etməyən kəslər üçün isə bunun tam tərsi olar. Onlar başlarına gələn hər çətinlikdə və əziyyətdə dərhal ümidsizliyə qapılar, sıxıntıya düşər, qorxu duyar və nəticəsində dünyanı da, axirəti də itirərlər. Allah Quranda bu kəslərin vəziyyətlərini belə bildirir:

**İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur. (Həcc surəsi, 11)**

## Hz. Yusifin həbsxana həyatının hikmətləri və vəsilə olduğu nemətlər

Hz. Yusifin həyatı, daha əvvəl də ifadə etdiyimiz kimi, Allahın hər şeyi bir xeyir və hikmət üzərinə yaratdığını göstərən hadisələrlə doludur. Yalnız həbsxanaya atılması deyil, əleyhinə qurulan hər hiylə də onun lehinə bir xeyirlə nəticələnmişdir.

Məsələn, qardaşları hz. Yusifi öldürmək üçün quyuya atmışdılar. Ancaq bu hadisə hz. Yusifin Misirə yerləşməsinə və davamında da Misir xəzinələrinin başına keçməsinə vəsilə olmuşdur. Evində qaldığı Əzizin arvadının atdığı böhtan ilə həbsə atılmasının nəticələri də həmişə xeyirlərə vəsilə olmuşdur. Bir insanın böhtan nəticəsində həbsə düşməsi, hadisələrin xeyir və hikmətlərini görə bilməyən kəslər tərəfindən böyük bir şanssızlıq və bəla olaraq xarakterizə edilə bilər. Halbuki, hz. Yusifin həyatında gördüyümüz bu hadisə sayəsində onun gözəl əxlaqına, namusuna, Allahın haram etdiklərinə qarşı nə dərəcə diqqətli olduğuna, imanına, doğruluğuna bütün şəhər xalqı şahid olmuşdur. Bununla yanaşı, sahib olduğu elm hökmdarın qulağına da çatmış və bu elmi sayəsində Misir xəzinələrinin xəzinədarı olaraq təyin edilmişdir. Bu səbəbdən bir mömin üçün ən gözəl davranış Rəbbimizin onun üçün təyin etdiyi qədərə tamamilə təslim olmaq və Allahın hadisələrin ardından nələr göstərəcəyini səbirlə və təvəkküllə gözləməkdir. Allah bütün hadisələri bizim əvvəldən bilməyəcəyimiz qüsursuz bir plan içində, ən incə təfərrüatı ilə və ən xeyirli olacaq şəkliylə yaradar. Hz. Yusif də bu həqiqəti belə dilə gətirmişdir:

**O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar hamısı onun qarşısında səcdə etdilər. O dedi: “Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O mənə lütf etdi. O məni zindandan çıxartdı və şeytan mənimlə**

**qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan yanıma gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır. Həqiqətən, O, Biləndir, Müdrikdir. (Yusif surəsi, 100)**

# Saleh bir möminin hz. Yusif Mədrəsəsində olmasının xeyir və hikmətləri

Kitabın əvvəlində də vurğuladığımız kimi, Allah əlbəttə ki, hər hadisədə bizim görə bildiyimiz və görə bilmədiyimiz saysız fayda, xeyir və hikmət yaradar. Ancaq saleh möminlərin başlarına hər hansı bir hadisə gələndə Allaha yönələrək, bu hadisələrin xeyir və hikmətlərini görməyə çalışmaları lazımdır. Bu, hz. Yusif Mədrəsəsində bütün inanclı insanlar üçün keçərlidir. Bu hissədə hz. Yusif Mədrəsəsinin inananlara qazandırdığı faydalar, sağlamlıqlar və Allahın rəhmətinə necə vəsilə olduğu izah ediləcək.

# Möminlərin qardaşlıq əlaqələrinə, sədaqətlərinə, qərarlı və səmimi rəftarlarına hər kəs şahid olar

Bir möminin hz. Yusif Mədrəsəsinə düşməsinə, eynən hz. Yusifin həyatında olduğu kimi, inkar edənlərin, insanlar arasında əxlaqsızlığı və inkarı yaymağa çalışanların böhtanları və haqsız ittihamları səbəb olar. Bu kütlələrin sanki hay-küy salaraq möminlərin üzərinə getmələri, xalq arasında saxta dəlillər, yalançı şahidlər və əsassız xəbərlərlə meydana gətirdikləri hiddətlənmə, möminlərin heç bir cinayətləri olmadığı halda həbs olunmaları ilə nəticələnər. Bədiüzzaman Səid Nursi, İmam-ı Azam, Süleyman Hilmi Tunahan kimi əhəmiyyətli İslam alimləri də bir-birinə bənzər haqsız ittihamlar və əsassız böhtanlar nəticəsində hz. Yusif Mədrəsəsində qalmışlar.

Saleh möminlərə atılan böhtanların ən başlıcası möminlərin bir mənfəət əldə etmək istədikləri istiqamətindədir. Bu iftira keçmişdə bütün peyğəmbərlərə və

onların yanındakı saleh möminlərə atılmışdır. Hətta inkar edənlər möminlərin mənfəət üçün bir yerdə olduqlarından o qədər əmindirlər ki, onları dağıtmaq üçün **"... Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər! ..." (Munafiqun surəsi, 7)** dedikləri bildirilir. Bu ayədən də aydın olduğu kimi möminlərin maddi mənfəətlər üçün bir yerdə olduqlarını, maddi mənfəətlərinin qarşısı alındıqda isə birliklərinin sona çatacağını zənn edərlər.

Bu əslində cahil cəmiyyətin "adamı özün kimi bilərsən" məntiqinin əks olunmasıdır. Çünki həqiqətən də Allaha iman etməyən kəslər, mənfəətləri ən kiçik bir zərərə uğradığı vaxt qırx illik dostlarından, hətta bəzən ana-atalarından belə imtina edə bilərlər. Bu çirkin əxlaqa görə, bir insanın maddi mənfəəti olmayan biriylə yoldaşlıq etməsi, ona yardım etməsi, fədakarlıq göstərməsi çox böyük bir saflıqdır. Yoldaşlığın möhkəmliyi də bəhsi keçən mənfəətin böyüklüyünə, əhəmiyyətinə görə təyin olunmalıdır. Dindən uzaq insanlar, öz əxlaqları bu şəkildə olduğu üçün, möminləri də özləri kimi dəyərləndirirlər. Ancaq möminlərə yönəltdikləri hər cür hücum, böhtan və haqsız ittihamlara, meydana gətirdikləri çətin şərtlərə və verdikləri əziyyətlərə baxmayaraq gördükləri qərarlı, sadiq, vəfalı, mətanətli və güclü rəftarlar qarşısında böyük bir təəccüb yaşayarlar. Çünki bütün məqsədləri möminləri ruhdan salmaq, bir-birlərinə olan güclü qardaşlıq əlaqələrini pozmaq və dağıtmaq ikən, birdən-birə bütün səylərinin boşa çıxdığını anlayarlar.

Saleh möminlər şərtlər nə olursa olsun imanlarından, ibadətlərindən, gözəl əxlaqlarından və Allaha iman edən insanlarla birlikdə olmaqdan imtina etməzlər. Allah bir çox ayəsində saleh möminlərin bu üstün xüsusiyyətlərini bildirmişdir. Bu ayələrdən bəziləri belədir:

**Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır. (Hucurat surəsi, 15)**

**Neçə-neçə peyğəmbər olmuşdur ki, bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevir. Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" – olmuşdur. (Ali İmran surəsi, 146-147)**

Göründüyü kimi, möminlərin həbs və ya haqsız hücumlar kimi çətinliklərlə qarşılaşmalarının vəsilə olduğu xeyirlərdən biri, onların sədaqətlərinin, vəfalarının,

bir-birlərinə olan bağlılıqlarının ortaya çıxmasıdır. Bu, içlərində yaşadıqları cəmiyyətin ilk dəfə qarşılaşdığı bir modeldir. Bütün bu hadisələr möminlərin sahib olduqları gözəl əxlaqın bütün cəmiyyət tərəfindən tanınmasına da vəsilə olur. Yalnız onlarla eyni dövrdə yaşayanlar deyil, gələcək bir çox nəsil də eyni şəkildə saleh möminlərin çətinlik anlarında belə qətiyyətli və sadiq olduqlarına, heç bir zaman ruhdan düşmədiklərinə şahidlik etmiş olarlar.

Necə ki, yaxın tariximizdə Bədiüzzamanın və ətrafındakıların göstərdikləri qətiyyət, hz. Yusif Mədrəsəsindəki şövq və həyəcanları bunun ən gözəl nümunələrindən biridir. Onlar həm yaşadıqları dövrdə, həm də indiki vaxtda bütün möminlərə gözəl bir nümunədirlər. Bədiüzzaman, hz. Yusif Mədrəsəsində olduğu vaxt azadlıqda olan qardaşlarına yazdığı məktublarda onlara belə xitab etmişdir:

"Əziz, sıddık (doğru danışan), sarsılmaz, çətinlikdən bezib bizlərdən çəkilməz qardaşlarım! ... Nur tələbələrinin də, bir neçə ildə ən uyğun olan Mədrəsə-i Yusifiyyədə bir dəfə toplanmalarının lüzumu cəhətində min çətinlik və sıxıntı belə olsa əhəmiyyəti yoxdur. Köhnə həbslərimizdə bir neçə zəif qardaşlarımızın bezib dairə-i Nuriyedən çəkinmələri onlara çox böyük bir itki oldu və Nurlara heç zərər gəlmədi. Onların yerinə daha mətin, daha səmimi şagirdləri meydana çıxdılar. Madam dünyanın bu imtahanları keçicidir, tez gedərlər. Savablarını, meyvələrini bizlərə verərlər. Biz də İlahi yardıma etimad edib səbir içində şükür etməliyik." (Şualar, s. 503)

Bədiüzzaman bir başqa məktubunda hz. Yusif Mədrəsəsindən sadiq dostlarına belə səslənmişdir:

"Əziz, sıddık (doğru danışan) qardaşlarım! Bu köhnə və yeni iki Mədrəsə-i Yusifiyyədəki şiddətli imtahanda sarsılmayan və dərsindən imtina etməyən və yandırıcı şorbadan ağızları yandığı halda tələbəliyini buraxmayan və bu qədər hücuma qarşı mənəvi qüvvəti qırılmayan şəxsləri həqiqət əhli və gələcək nəsil alqışlayacaqları kimi, məlaikə və ruhanilər belə alqışlayırlar deyə qənaətim var. Lakin içinizdə xəstə və nəzakətli və kasıbların olması ilə, maddi çətinlik daha çoxdur. Və buna qarşı da hər biriniz bir-birinə təsəlli və əxlaqda və səbirdə bir nümunə alınacaq model və həmrəylik və yumşaltma bir şəfqətli qardaş və dərs müzakirəsində bir ağıllı həmsöhbət və mücib (cavab verən) və gözəl xasiyyətlərin əks olunmasına bir güzgü olmanız, o maddi çətinlikləri heçə endirər deyə düşünüb ruhumdan çox sevdiyim sizlər haqqında təsəlli tapıram ... "[5]

Bu gün, tarixdə yaşanmış hadisələrə baxaraq, saleh möminlərin qətiyyətlərindən, səbirlərindən, Allah yolundakı cəsarətlərindən və bir-birlərinə olan bağlılıqlarından nümunələr götürürük. Keçmişdə yaşanan hadisələrin bu gün bütün möminlərə nümunə olması bunu göstərir: O dövrdə baş verən hadisələr və çətinliklər möminlərin lehinə olmuş, onların həm dövründəki kəslər, həm də sonrakı

cəmiyyətlər tərəfindən tanınmalarına vəsilə olduğu kimi şərəf və üstünlük qazanmışlar.

## Möminlərə haqsızlıq edildiyi xalqa aydın olar, gözəl əxlaqlı, doğru və etibarlı insanlar olduqları ortaya çıxar

Hansı dövrdə yaşayırsa yaşasın, bir möminin qaralamağa çalışılacağı və haqqında cinayət araşdırmaları ediləcəyi açıqdır. Çünki bir mömini təsirsiz hala gətirmə mövzusunda xalqın razı salınması və həyata keçirilməsi nəzərdə tutulan planın kütlələrdən dəstək tapması üçün örtük hazırlanmalıdır. Necə ki, hz. Yusifin nümunəsində vəzirin arvadının böhtanı hz. Yusifin elçiliyinə mane olmaq üçün bir pərdə asmaq və həbsə atılması üçün bir bəhanə olaraq istifadə edilmişdir.

Bütün bu hadisələr nəticəsində möminlər haqqında ətraflıca araşdırmalar aparılacaq, ancaq möminlər digər insanlardan fərqli olaraq haqlarında aparılacaq olan hər cür araşdırmaya qarşı olduqca rahatdırlar. Haqlarındakı istintaq və araşdırmalardan yalnız Allahın əmr və tövsiyələrinə görə yaşamayan insanlar narahat olarlar. Çünki insanların böyük bir hissəsinin ortaya çıxmasından narahat olacağı bir səhvi, daha açıq desək bir saxtakarlığı və ya hüquqa zidd bir fəaliyyəti var. Lakin müsəlmanlar Allahdan qorxan və buna görə də hər cür pislikdən və günahdan şiddətlə uzaq duran insanlardır. Onlar axirətdə hesab verəcəklərini bildikləri üçün hər an Quran əxlaqına uyğun bir həyat yaşayarlar, hesabını verə bilməyəcəkləri hər cür hərəkətdən də qəti olaraq uzaq durarlar. Heç kimin malında, mülkündə gözləri yoxdur, heç kimə ən kiçik bir haqsızlıq və ya ədalətsizlik etməzlər, harama əl uzatmaz, mənfəətləri arxasınca qaçmazlar. Quranda əmr edilənlərin gərəyi olaraq yer üzündə fitnə-fəsad çıxarmaqdan şiddətlə uzaq durar, daim dövlətə bağlılığı təşviq edən, sülhsevər, ictimai hüzuru təmin etməyə çalışan bir model meydana gətirərlər. Məhz buna görə də həyatlarının araşdırılmasından, istintaqdan heç bir şəkildə çəkinmədikləri kimi, nə qədər çox araşdırılırsa araşdırılsın, keçmişlərində yalnız təmizlik tapılacağını bilir və bunun rahatlığını yaşayarlar. Edilən hər istintaq və araşdırmanın, daim öz lehlərinə nəticələnəcəyini və nə qədər təmiz, günahsız və dürüst insanlar olduqlarını bir daha ortaya çıxaracağını unutmazlar.

Məsələn, hz. Yusifin zindana atılması onun gözəl əxlaqının, təmizliyinin, doğruluğunun və Allaha olan imanının tanınmasıyla nəticələnmişdir. Həbsdə keçən

illərin ardından hökmdar onu çağırdıqda hz. Yusif əvvəlcə günahsız olduğunun isbat edilməsi üçün hökmdardan istintaq aparmasını şəxsən özü istəmişdir.

Diqqət edilsə, yalnız təmiz və doğru insanlar ürək rahatlığı ilə özləri haqqında istintaq aparılmasını tələb edə bilərlər. Beləliklə, hökmdar hz. Yusifə böhtan atan qadını və digər qadınları yığmış və onlardan hz.Yusif haqqında soruşmuşdur. Qadınlar hz. Yusifdən heç bir pislik görmədiklərini dediklərində, ona böhtan atan vəzirin arvadı da günahını etiraf etmişdir. Beləcə, hz. Yusifin günahsızlığı şəxsən böhtanı atan kəslər tərəfindən sübut edilmişdir. Bu hadisə Yusif surəsində belə xəbər verilir:

**Hökmdar: "Onu mənim yanıma gətirin!" – dedi. (Onun göndərdiyi) elçi (Yusifin) yanına gəldikdə o: "Ağanın yanına qayıdıb soruş ki, (Züleyxanın məclisində) əllərini kəsən o qadınların məqsədi nə idi? Həqiqətən, Rəbbim onların məkrini biləndir!" (Padşah həmin qadınları çağırtdırıb) soruşdu: "Yusifi tovlayıb yoldan çıxartmaq istəməkdə məqsədiniz (qəsdiniz) nə idi? (Qadınlar: ) "Allah eləməsin! Biz onun barəsində pis bir şey bilmirik!" – deyə cavab verdilər. Vəzirin övrəti (Züleyxa) dedi: "Artıq indi həqiqət bəlli oldu. Yusifi tovlayıb yoldan çıxartmaq istəyən mən idim. O, şübhəsiz, doğru danışanlardandır!" (Yusif dedi:) "Bu (qadınlara həqiqəti etiraf etdirməyim) ona görədir ki, (vəzir evdə) olmadıqda mənim ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini (onları baş tutmağa qoymadığını) bilsin! Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir!" (Yusif surəsi, 50-53)**

Göründüyü kimi, hz. Yusif öz tələbiylə bu böhtan haqqında məlumatı olanları bir yerə toplamış və tərtəmiz bir insan olduğunun o kəslər tərəfindən açıqlanmasını təmin etmişdir. Bu böhtan və həbs dövrü ilk baş verdiyi vaxt, bu hadisəni eşidən ya da görən insanlar üçün bədbəxt bir hadisə kimi görünmüş ola bilər. Ancaq hz. Yusif kimi əhəmiyyətli bir vəzifəni öhdəsinə götürəcək qədər doğru və gözəl əxlaqlı bir insanın təmizliyinin, bütün insanların şahidliyi ilə qəbul edilməsi, əlbəttə ki, onun gücünü və insanların gözündəki etibarını artırmışdır. Bunun sayəsində çox əhəmiyyətli bir mövqeyə tərəddüd edilmədən seçilmişdir.

Quranda möminlərə bildirilən bir müjdə isə, Allahın mütləq möminlərə qurulan hiylələri pozacağı və möminlərin haqlı olduğunu ortaya çıxaracağıdır. Möminlərin özlərinə atılan böhtanlardan Allahın köməyiylə təmizə çıxdıqlarını göstərən ayələrdən biri belədir:

**Ey iman gətirənlər! Musanı incidən şəxslərə oxşamayın. Allah onu onların dediklərindən təmizə çıxartdı. O, Allahın yanında çox ehtiram edilən şəxsdir. (Əhzab surəsi, 69)**

Bədiüzzaman Səid Nursi də özünün, şagirdlərinin və Risalə-i Nurların tez-tez istintaqa məruz qalmalarında çox böyük xeyirlər olduğunu hər fürsətdə ifadə etmişdir. Çünki bu mübarək insanlar istintaqlardan hər dəfə həm fərd, həm də əsərlər baxımından tərtəmiz çıxmışlar. İstintaqlar sayəsində dürüstləkləri və səmimiyyətləri hər dəfə dövlətin əlaqədar orqanları tərəfindən də təsdiq edilmişdir. Bədiüzzaman bu mövzuyla əlaqədar olaraq bir sözündə belə deyir:

"**... Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz". (Bəqərə surəsi, 216)** sirrini təkrar göstərdi ... Başda Ankara bilikli kəslərinin təqdiranə hesabatları, hətta beş sandıq Nur risalələrində beş on səhv tapdıqları halda, məhkəmədə onların səhv və səhv göstərdikləri nöqtələr gerçəyin eyni olduğunu və onların səhv və yanlış dedikləri maddələrdə özləri səhv etdiklərini sübut etdiyimiz kimi, beş yarpaq hesabatlarında beş on səhv və xətalarını göstərdik. Və yeddi məqama göndərdiyimiz Meyvə və Müdafaaname Risalələri və Ədliyyə Vəkalətinə göndərilən Nurun umum risalələri, şiddətli əmrlər gözləyərkən çox yumşaq, hətta təsəlli olaraq Baş vəkilin bizə göndərdiyi məktubu kimi, barışma tərzində ilişmələri qəti olaraq isbat etdi ki: Risalə-i Nurun İlahi yardım kəramətiylə, onları məğlub edib özünü onlara yol göstərici olaraq oxutdurmuş, o geniş dairələri bir növ dərshanə etmiş, çox tərəddüdlü və çaşmış imanlarını qurtarmış və bizim sıxıntılarımızdan yüz dərəcə çox mənəvi rahatlıq və fayda verdi. "[6]

Bədiüzzamanın bu hikmətli sözlərində diqqət çəkdiyi bir başqa xeyir isə, bu hadisələr əsnasında Allahın varlığının və birliyinin izah edildiyi Risalə-i Nurların bir çox adam tərəfindən dəfələrlə oxunmuş olmasıdır. Risalə-i Nurların təkrar-təkrar oxunması bir çox insanın imanına vəsilə olmuş və eyni zamanda bu əsərlərin yazarını da tanıma imkanı yaratmışdır.

Bədiüzzaman risalələrində həmçinin çətinlikləri və şiddətli imtahanları qızılla misin bir-birindən ayrıldığı məhək daşına bənzətmişdir. Məhək daşı necə qızılın qızıl, misin də mis olduğunu ortaya çıxarırsa, çətin imtahanlar da mömininin bütün gözəl xüsusiyyətlərini ortaya çıxaracaq, nəfsinin pıçıldadığı bütün vəsvəsələri də ortadan qaldıracaq. Bu dövrlər inanan bir kəsin iman gücünü ortaya qoyar və bunu içində yaşadığı cəmiyyətə göstərər. Bədiüzzaman və tələbələrinin qarşılaşdıqları çətinliklər da onların "qızıl" qədər qiymətli olduqlarını ortaya qoymuş, onları bütün xalqa tanıtmışdır. Gördükləri işlərin yalnız Allahın varlığını insanlara izah etmək

məqsədiylə edilən saf işlər olduğunu, heç bir niyyətin, şəxsi mənfəətin bu fəaliyyətlərə qarışmadığını bütün insanlara göstərmişdir. Beləliklə, ürəyində səmimiyyətləriylə əlaqədar şübhə olanlar da onların çətinlik zamanındakı gözəl əxlaqlarını görmüş və saf niyyətlərinə qənaət gətirmişlər. Bədiüzzamanın mövzuyla əlaqədar sözləri belədir:

"Birdən bu səhər ürəyə xəbərdarlıq edildi ki: Siz bu şiddətli imtahana girmək və incədən incəyə sizi neçə dəfə "qızıl mı, mis mi" deyə ölçüyə vurmaq və hər cəhətdə sizi insafsızca təcrübə etmək və nəfslərinizin hissələri və dəsisələri varmı yoxmu üç-dörd ələklə ələnmək; xalisanə, sırf haqq və həqiqət adına olan xidmətinizə bir çox lüzumu var idi ki; İlahi qədər və Rəbbinköməyi icazə verir. Çünki bir imtahan meydanında inadçı və bəhanəçi insafsız təcavüzkarların qarşısında nümayiş edilməsindən hər kəs anladı ki: Heç bir hiylə, heç bir eqoizm, heç bir qərəz, heç bir dünyəvi, axirət və şəxsi mənfəət qarışmayaraq, tam xalis, haqq və həqiqətdən gəlir. Əgər pərdə altında qalsaydı, çox mənalar verilə bilərdi. Daha iman əhlinin avam təbəqəsi etimad etməzdi. "Bəlkə bizi aldadırlar" deyər və seçmə qismi belə vəsvəsə edərdi. Bəlkə bəzi məqam əhli kimi özlərini satmaq, etimad qazanmaq üçün belə edirlər deyə daha tam qənaət etməzdilər. İndi imtahandan sonra, ən inadçı vəsvəsəli belə təslimə məcbur olur. Zəhmətiniz bir, həyat yoldaşınız mindir inşaAllah." [7]

## Xalq möminlərdən xəbərdar olar, onları tanıdıqca yaxınlıq və sevgi duymağa başlayar

Bir möminin hz. Yusif Mədrəsəsində olmasının və bununla əlaqəli hadisələrin çox əhəmiyyətli bir hikməti də, insanların diqqətlərinin möminlərin üzərinə çəkilmiş olmasıdır. Bu həbs hadisələri olmasa bəlkə möminlər daha az insan tərəfindən tanınacaq, xalq onların işlədikləri xeyir əməllərin bir çoxundan xəbərdar olmayacaq. Ancaq bu hadisələr nəticəsində xalqın böyük bir qismi möminləri tanıyar və onların əxlaqlarına şahid olar.

İnsanların xarakterlərinin ən doğru olaraq aydın olduğu mühit əziyyətə və çətinliyə düşdüyü anlardır. Haqsızlığa uğrayan, böhtan atılan, bir çox istiqamətdən çətinlik yaşayan bir insanın səbirli, təvazökar, sükunətli, alicənab, bağışlayıcı, razılaşan və əsla şikayət etməyən rəftarı, əlbəttə ki, hadisələri izləyən insanlara bir çox şey göstərəcək, səmimi insanları tanımalarına vəsilə olacaq. Necə ki, Səid Nursinin hər hz. Yusif Mədrəsəsinə girişi və ya sürgün edilməsi oxşar xeyir və

hikmətlərlə nəticələnmişdir. Bu hadisələr nəticəsində Bədiüzzaman Nur tələbələri və Nur risalələri xalqın diqqətini çox çəkmiş və beləcə insanlar Risalə-i Nura yönəlmişlər. Səid Nursi bu mövzudakı düşüncələrini belə qeyd edir:

“İkinci hikmət və fayda: Bu zamanda Nurlarla iman xidməti, hər tərəfdə elan verərək və möhtac olanların nəzər-i diqqətlərini çəkməklə olar. Məhz həbs edilməyimizlə Nurlara diqqət çəkilər, elan hökmünə keçər. Ən çox inadçı və ya möhtac olanlar onu tapar, imanını qurtarar və inadı qırılar, təhlükədən xilas olar və Nurun dərshanə genişlənər.[8]

“Bəli Risalə-i Nurun məsələsi; İslam aləmində, xüsusilə bu məmləkətdə çox böyük əhəmiyyətə malik olduğundan belə həyəcanlı toplamalar ilə xalqın diqqətini Nur həqiqətlərinə çəkmək lazımdır ki, ümidimizin və tədbirlərimizin və gizləməyimizin və təcavüzkarların alçaltmalarının üzərində və seçimimizin xaricində belə parıltı ilə Risalə-i Nur öz dərslərini dost və düşmənə açıq şəkildə verir. Ən gizli sirlərini açıqca çəkinməyərək göstərir. Madam həqiqət budur, biz kiçik sıxıntılarımızı kinə kimi bir acı dərman bilib səbir və şükür etməliyik, "Əlbət bu da keçər" deməliyik." [9]

## Möminlərin hz. Yusif Mədrəsəsində bir-birlərinə olan bağlılıqları, həmrəylikləri qüvvətlənir, əskikliklərini aradan qaldırma imkanı tapırlar

Hz. Yusif Mədrəsəsinin digər bir xeyirli istiqaməti isə burada yaşayan möminlərin bir-birlərinə olan faydasıdır. İyirmi dörd saat ərzində gecə-gündüz demədən kiçik bir məkanın içində bir-birlərinin hər hallarına şahid olan müsəlmanlar bir-birlərinə həmişə gözəl gözlə baxar və bir-birlərinin ən gözəl istiqamətlərini özlərinə nümunə götürərlər. Birinin təmizliyi, birinin ağlı, birinin çalışqanlığı, birinin Quran biliyi, digərinin fədakarlığı, başqasının təvazökar hərəkətləri digər möminlərə gözəl bir tərbiyə verər. Hər kəs bir-birinin bir istiqamətinə qibtə edib onun tərbiyəsini alsa, hz. Yusif Mədrəsəsindəki təhsil sona çatdıqda möminlər mənəvi istiqamətdən böyük bir yetkinliyə çatmış və əxlaqlarını misliylə gözəlləşdirmiş olarlar. Bu dövr onların mənəvi olaraq dərinləşmələrinə, bir çox qüsurlarından təmizlənmələrinə vəsilə olar.

Möminlər qardaşlığın və dostluğun nə cür qiymətli və dəyərli olduğunu da burada layiqincə görərlər. Həmrəylikləri və dostluqları çox artar. Allah yolunda gözəl əxlaqın yayılması üçün gecə-gündüz dayanmadan çalışan mömin bacı-qardaşlarını ətraflı şəkildə düşünmə və təqdir etmə imkanı taparlar. Və hər dəfə Allahın təcəllilərini görüb, sevgiləri qat-qat artar. Mömin yanında olan mömin qardaşına həbsxana şərt və imkanlarında təqdim edə biləcəyi şeylərin ən gözəlini təqdim edər. Qardaşının təhlükəsizliyini, rahatlığını, sağlamlığını, imanını düşünər, əsas diqqətini ona verər. Bütün bunlar ancaq Quran əxlaqını və təhsilini almış insanların göstərə biləcəyi üstün vəsflərdir. Allah Quranda möminlərin bu gözəl əxlaqını, bir-birlərinə olan sevgilərini, çətin şərtlərdə belə bacı-qardaşlarının nəfsini öz nəfslərindən üstün tutduqlarını bu şəkildə bildirir:

**... Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Necə ki, Bədiüzzaman bir çox mömin qardaşı ilə birlikdə həbsxanada olmasının gözəlliklərindən biri olaraq, bir-birlərini rahatca görə bilmələrini də saymışdır. Həbsxanadan kənarda olduğu vaxtlar müxtəlif səbəblərdən ötrü çətinliklə görə bildiyi möminlərlə burada həmişə birlikdə olmuş, onlarla söhbət etmiş, təfəkkürlərini bölüşə bilmişdir. Burada çox gözəl bir təhsildən keçən bu möminlər isə, Bədiüzzamandan aldıqları təhsillə gələcəyin təbliğçisi olmuşlar. Getdikləri hər yerdə Quran əxlaqının üstünlüyünü, Risalə-i Nurlardan öyrəndikləri həqiqətləri izah etmişlər. Bədiüzzaman bir əsərində mömin qardaşlarıyla birlikdə olmanın necə bir nemət olduğunu bu şəkildə izah edir:

"Bu işsiz və iki qat artırılmış maddi və mənəvi qışda, Mədrəsət-üz Zəhranın bir dərshanə olan bu Mədrəsə-i Yusifiyyədə, öz qardaşdan daha müşfiq çox həqiqi dostlarını və mürşid kimi axirət qardaşları çox ucuz və az xərclə görmək, ziyarət etmək və onların fərdi xüsusiyyətlərindən istifadə etmək və şəffaf şeylərdə sirayət edən nur və nurani kimi yaxşılıqların, mənəvi yardımlarından rahatlıqlarından, təsəllilərindən qüvvət almaq cəhətində bu müsibət şəklini dəyişir, bir növ kömək pərdəsi hökmünə keçər. Bəli bu gizli yardımın bir lətif zərifliyidir ki, bütün buraya gələn Risalə-i Nur tələbələrinə "hocalar" namı verilmiş. Hər kəs dilində "hocalar .. hocalar" deyə hörmətlə yad edirlər. Bu zəriflik içində lətif bir işarə var ki; bu həbs mədrəsəyə döndüyü kimi, Risalə-i Nur şagirdləri də professor, müəllim və sair həbsxanalar də bu hocaların sayəsində inşaAllah bir məktəb hökmünə keçəcəklər."[10]

Bədiüzzamanın sözlərindən onun ən çətinlik və sıxıntı verən hadisələrdə belə təcəlli edən gözəllikləri görə bildiyi, hər şeyə mümkün olan ən müsbət və ən xeyirli gözlə baxa bildiyi, daim optimist olduğu, heç bir zaman pessimizmə, ümidsizliyə, ya

da kədərə qapılmadığı, çox güclü və dözümlü bir insan olduğu açıq şəkildə aydın olur. Bunlar Allaha könüldən iman etmiş, təvəkküllü, səbirli və təqva sahibi bir insanın əhəmiyyətli xüsusiyyətləridir. Allah Bədiüzzamanın bu gözəl düşüncəsinin qarşılığı olaraq, həqiqətən də həbsxananı mədrəsəyə çevirmiş, özü və şagirdləri bu mədrəsədən istifadə etdikləri kimi, digər məhkumları da şagird halına gətirmişdir.

Necə ki, aradan keçən onlarla ilə baxmayaraq bu gün də müsəlmanlar hz. Yusif Mədrəsəsində təhsil alan və ətrafındakıları də öyrədən Bədiüzzamanı anır, onun hikmətli sözlərindən, təfəkkürlərindən faydalanırlar.

# MÖMİNLƏRİN HZ. YUSİF MƏDRƏSƏSİNDƏKİ TƏHSİLİ

Bundan əvvəlki hissədə hz. Yusif Mədrəsəsinin inananlar üçün nə cür xeyirlərə vəsilə olduğundan bəhs edildi. Heç şübhəsiz hz. Yusif Mədrəsəsinin ən əhəmiyyətli istiqamətlərindən biri, burada möminlərin qazandıqları mənəvi dərəcələrdir. Çünki əvvəldən bəri üzərində dayandığımız kimi hz. Yusif Mədrəsəsi möminin mənəvi istiqamətdən təlim aldığı və gücləndiyi, nəfsini tərbiyə etdiyi, imanda dərinləşdiyi, əxlaqını daha da gözəlləşdirdiyi "tərbiyə evi" xüsusiyyəti daşıyır. Bu mədrəsədən aldığı dərəcə isə özünə sonsuz axirət həyatında bir sevinc qaynağı olacaq, burada olduğu üçün Allaha şükür edəcək.

## Hz. Yusif Mədrəsəsində səbir və təvəkkül

Saleh bir mömin daim səbirli və təvəkküllüdür. Səbrinin və təvəkkülünün sirri isə, "Heç şübhəsiz, Biz hər şeyi qədər ilə yaratdıq". (Qamər surəsi, 49) ayəsində də bildirildiyi kimi, hər hadisəni Allahın bir qədərlə yaratdığını bilməsindədir. Bu səbəblə, hz. Yusif Mədrəsəsində olmaq saleh bir möminin səbrini və təvəkkülünü gücləndirər, bu xüsusiyyətlərinin dərəcə-dərəcə artmasına vəsilə olar.

Əsl səbir və təvəkkül iman etməyən insanların qətiyyən sahib ola bilməyəcəkləri çox qiymətli iki xüsusiyyətdir. Məsələn, həbsdə olan insanlar işlədikləri cinayətlərin qarşılığı olaraq bu məkanlarda cəzalandırılarlar. Bu müddət ərzində həbsxana şərtlərindən, başlarına bu cür hadisələrin gəlməsindən, ailələrini görməməkdən, azad ola bilməməkdən və daha bir çox mövzudan ötrü davamlı şikayət edər, ümidsizliyə qapılar, üsyan edər, maddi və mənəvi bir çöküntü yaşayarlar. Hətta özlərini islah edib düzəltmək əvəzinə bu üsyankar rəftarlarından ötrü bəzən daha da azğınlaşarlar.

Həbsdə olan bir möminin isə hadisələrə reaksiyası tam fərqlidir. Hər şeydən əvvəl, heç bir günahı olmadığı halda, haqsız yerə həbsdə olmuş olsa da, digər insanlar kimi vəziyyətindən şikayətçi olmaz, üsyankar bir rəftara bürünməz. **"De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"" (Tövbə surəsi, 51)** ayəsi gərəyi başına gələn hər cür çətinliyin Allahın təqdiri olduğunu bilər və çox böyük bir təslimiyyətlə qarşılayar.

Həbsxanada qarşılaşdığı hər çətinliyin axirətdəki savabının dəfələrlə artmasına vəsilə olmasını ümid etdiyindən, bunlara da, **"Sən təmkinlə səbir et!" (Məaric surəsi, 5)** ayəsində bildirildiyi kimi səbir edər. Çətinliklərin asanlaşması üçün dua edər, ancaq çətinliklər meydana gəldiyində də axirəti üçün sevinər. Məsələn, biləyindəki qandalın biləyini bir az artıq sıxması ona bu çətinliyin axirətdəki qarşılığını düşündürər və sevinc verər. Ya da qaldığı yerin soyuq olmasına göstərdiyi səbrin özü üçün bir axirət qazancı olacağını ümid etdiyindən bunu da sevinclə qarşılayar. Bu, dünya həyatındakı imtahanın bir sirridir və bunu yalnız iman gətirənlər bilərlər.

Mömінin çətin şəraitdə səbri "dözməkdən" çox fərqlidir. Çünki dözümdə imansız insanların təvəkkülsüzlüyü, ümidsizliyi və şikayətləri var. Səbirdə isə imanın gətirdiyi sevinc, şövq və mənəvi istiqamətdən böyük bir kamillik var. Məsələn, barmaqlıqlar arxasında olmaq, hərəkət azadlığının məhdudlaşdırılmış olması mömin üçün səbir edilməli olan bir vəziyyətdir. Ancaq mömin hər barmaqlığa baxdıqda axirətdə bu barmaqlıqlardan ötrü almağı ümid etdiyi gözəl qarşılığı düşünər və sevinər. Mömin qardaşlarından günlərlə, aylarla, hətta illərlə ayrı qalmağa da səbir edər. Qardaşları üçün hər darıxdığı vaxt cənnəti düşünər, möminlərlə birlikdə sonsuza qədər birlikdə olacağını ümid etdiyi üçün, bu həsrət də özünə zövq və şövq verər.

Heç kim bir an sonrasının belə necə olacağını bilə bilməz. Bunun elmi yalnız Rəbbimizə aiddir. Ancaq Allah Quranda bir çox ayəsi ilə mömінin sonunun xeyir olacağını bildirir. Məsələn, **"Həqiqətən, Axirət sənə dünya həyatından daha xeyirlidir. Şübhəsiz ki, Rəbbin sənə nemət bəxş edəcək, sən də razı qalacaqsan". (Duha surəsi, 4-5)** ayələri Peyğəmbərimiz (s.ə.v)-in şəxsində əslində bütün möminlərə verilən bir müjdədir. Allahın bu vədinin haqq olduğunu bilən mömin, hər nə şərtdə olursa olsun böyük bir hüzur və təvəkküllə Rəbbimizin özünü nemətləndirəcəyi günə qədər səbir edər.

Həmçinin həbsxanadan çıxmasına mane olan və ya gecikdirən hadisələr baş verə bilər. Bunlar imansız bir insanın baxış bucağı ilə "şanssızlıqlar", "tərsliklərdir". Halbuki iman edən biri, bütün bu hadisələrin Allahın yaratdığı planın bir hissəsi olduğunu və mütləq Allahın bildiyi, özünün isə bilməyəcəyi bir hikmət və məqsədlə yaradıldıqlarını bilir. Bu səbəblə bu cür hadisələrdən ötrü əsla panikaya, təlaşa və ya ümidsizliyə qapılmaz. Allahın özü üçün nələr yaratdığını təvəkküllü olaraq gözəl bir səbirlə seyr edər. Xeyirli olanın hansı olacağına, necə və nə zaman olacağına Allah qərar verər və Rəbbimizin onun üçün ən xeyirlisini istədiyini bilər. **"... Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz". (Bəqərə surəsi, 216)** ayəsi gərəyi meydana gələcək hər cür hadisəni təvəkkül edərək izləyər.

Məsələn, hz. Yusif özündən əvvəl həbsdən çıxan həbsxana yoldaşına onu ağasına xatırlatmasını söyləmişdir. Ancaq bu adam ağasına hz. Yusifdən bəhs etməyi unutduğu üçün hz. Yusif daha bir neçə il zindanda qalmışdır:

**Yusif onlardan qurtulacağını yəqin etdiyi kimsəyə dedi: "Ağanın yanında məni yada sal!" Lakin şeytan ona Yusifi ağasının yadına salmağı unutdurdu və o, zindanda bir neçə il də qaldı. (Yusif surəsi, 42)**

Təvəkkül etməyi və Allahın yaratdığı qədərə təslim olmağı bilməyən insan belə bir hadisədə yoldaşının onu unutmasını bir şanssızlıq olaraq görə bilər. Buna kədərlənib, qəzəb duya bilər. Ancaq hz. Yusif kimi hər şeyin bir qədər ilə yaradıldığını bilən, səbir əhli və təvəkküllü bir insan mütləq bunda bir xeyir olduğunu bilərək davranar. Ən əhəmiyyətlisi, Allah istəmədikcə özünü həbsdən çıxaracaq heç kimsə olmadığını, yoldaşının ağasının da buna güc yetirə bilməyəcəyini bilər. Hər şeydə olduğu kimi bu mövzuda da Allaha yönələrək, dua edər.

Hər müsəlman Allaha iman etdiyi və qədər elmini bildiyi üçün səbirli və təvəkküllüdür. Ancaq hz. Yusif Mədrəsəsində olan bir möminin vaxtının böyük bir hissəsində səbir və təvəkkül etməli olacağı hadisələr cərəyan edəcəyi üçün, bu xüsusiyyətləri daha da çoxalar, bu adamda kamil iman hər istiqamətiylə özünü göstərər.

Haqsız səbəblərlə həbsxanada olan bir mömin ən başda haqsızlığa uğramağa səbir edib təvəkkül edər. Ancaq qarşılaşdığı şərtlər, imkanlar, mühit, vaxt düşünüldükcə səbrin və təvəkkülün möminə qazandırdığı faydalar da bir-bir ortaya çıxar. Günlər, aylar hətta illər burada keçə bilər. Ancaq səbir edən və Allaha güvənib dayanan bir mömin üçün bunun əhəmiyyəti Allah yanındadır. Orada keçirdiyi və səbir etdiyi hər saat, hər dəqiqə, hətta hər saniyə səmimi bir möminin axirətdə sonsuz nemətlərlə təchiz edilmiş cənnətlə qarşılıq almasını təmin edə bilər. Soyuq, aclıq, xəstəlik, hamısı sona çatacaq olan, müddəti Allah qatında məlum olan, yalnız dünyaya aid çətinlik və əziyyətlərdir. Allah, imtahan olaraq verdiyi çətinliklərə səbir etməyin qarşılığında inanan qullarına cənnəti müjdələyir:

**İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır. Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan Cənnət bağları ilə müjdələyir. Onlar orada əbədi qalacaqlar. Şübhəsiz ki, ən böyük mükafat Allah yanındadır. (Tövbə surəsi, 20-22)**

Səid Nursi yoldaşları üçün yazdığı qeydlərdə cənnətə qovuşmağı ümid edən bir insan olaraq çətin şərtlərə qarşı necə səbirli olduğunu, hadisələrin hər zaman gözəl və xeyirli istiqamətlərini necə görə bildiyini belə ifadə edir:

"Əziz, sıddık (doğru danışan), təmkinli və vəfadar qardaşlarım!

Sizi üzmək və ya maddi bir tədbir etmək üçün deyil, ortaq mənəvi duanızdan daha çox istifadəm üçün və sizin də daha çox soyuqqanlılıq və tədbir və səbir və dözüm və şiddətlə həmrəyliynizi mühafizə üçün bir halımı bəyan edirəm ki: Burada bir gündə çəkdiyim çətinlik və əzabı, Əskişəhərdə bir ayda çəkməzdim. Dəhşətli masonlar, insafsız bir masonu mənə müsəllət etmişlər, ta hiddətimdən və işgəncələrinə qarşı "Artıq yetər" deməyimdən bir bəhanə tapıb, zalım təcavüzlərinə bir səbəb göstərərək yalanlarını gizləsinlər. Mən, böyük bir İlahi lütfün bir əsəri olaraq şükür edərək səbir edirəm və etməyə də qərar verdim. Madam biz qədərə təslim olub, bu çətinlikləri "işlərin ən xeyirlisi çətin olanıdır" sirri ilə çox savab qazanmaq istiqamətiylə mənəvi bir nemət bilirik; madam müvəqqəti, dünyəvi müsibətlərin sonları ümumiyyətlə rahatlıq və xeyirli olur; və madam hakkəl yakin dərəcəsində yakini bir qat-ı qənaətimiz var ki: Biz elə bir həqiqətə həyatımızı vəqf etmişik ki, günəşdən daha parlaq və Cənnət kimi gözəl və əbədi səadət kimi şirindir. Əlbəttə biz bu sıxıtınlı hallar ilə öyünərək, şükür edərək bir mənəvi mübarizə aparırıq deyə şikayət etməmək lazımdır. "[11]

Bədiüzzaman bu məktubu yazdığı vaxt yaşlı və xəstə olmasına baxmayaraq əziyyətə məruz qalmışdır. Ancaq saleh bir möminin əxlaqını göstərərək, bütün çətinliklərə şükür edərək səbir etdiyini, hər çətinliyin ardınca asanlıq gələcəyinə iman etdiyini və bu çətinliklərin hər zamankından daha çox savab qazanmasına vəsilə olacağını ümid etdiyi üçün bunu mənəvi bir nemət olaraq gördüyünü yazmışdır.

Bunlar əlbəttə ki, möminlərə böhtan ataraq həbsə girmələrinə səbəb olan və beləcə onları təsirsiz hala gətirdiklərini zənn edən insanların bilmədikləri çox əhəmiyyətli sirlərdir. Allahın **"... Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür ..." (Ali İmran surəsi, 118)** ayəsində də bildirildiyi kimi iman etməyənlər möminlərə əziyyət vermək və onları çətin şərtlərdə görmək istəyirlər. Ancaq onların bu əziyyətlərinin saleh möminlərə tarix boyunca böyük bir şövq və sevinc qaynağı olduğunu, möminlərin hər şeyin axirətdəki qarşılıqlarını düşünərək sevindiklərini, səbirlərinin qarşılığında Allahın özlərinə rəhmət edəcəyini ümid etdiklərini bilməzlər. Bunlar yalnız iman edənlərin bildikləri sirlərdir. Məsələn, Bədiüzzamanın yuxarıdakı məktubunu yalnız həqiqi səbri bilən, Allahın hər yaratdığında bir xeyir olduğuna iman edən insanlar gərəyi kimi anlayıb, bir nəticə çıxara bilərlər.

Allah Quranda səbir edənlərlə səbir etməyənlərin mütləq ayırd ediləcəyini bildirmişdir. Bunların bir-birindən seçilməsi üçün isə Allah belə əziyyətli günlər yaradar. Bu əziyyətli günlərində səbir göstərənlərin, Quran əxlaqını izah etmək yolunda daha da böyük bir şövq və həyəcanla irəliləyənlərin gözəl əxlaqlarına bütün insanlar da beləcə şahidlik etmiş olarlar. Allah Quranda insanları bu məqsədlə də sınadığını belə bildirir:

**Əgər siz Uhud döyüşündə yara almışsınızsa, o düşmən qövm də bu cür yara almışdı. Biz bu günləri (qalibiyyəti və məğlubiyyəti) insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirənləri üzə çıxarsın və aranızdan şəhidlər seçsin. Allah zalımları sevmir. Həm də ona görə belə edirik ki, Allah mömінləri təmizə çıxarsın və kafirləri məhv etsin. Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cihada çıxanları və səbir edənləri bəlli etmədən siz Cənnətə daxil olacaqsınız? (Ali İmran surəsi, 140-142)**

Allah, Quranda səbir edənləri sevdiyini və səbirlərinin qarşılığını mütləq ən gözəliylə verəcəyini bildirir. Hz. Yusif Mədrəsəsində olan mömin üçün də Rəbbimizin onu sevməsindən və onu axirətdə gözəl bir həyatla müjdələməsindən daha qiymətli heç bir şey yoxdur:

**Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 96)**

# Çətinliklərin qazandırdığı mənəvi gözəlliklər

Bir möminin dünya həyatında qarşılaşdığı çətinlik və əziyyətlər onun üçün çox qiymətli vaxtlardır. Çünki bu anlarda göstərdiyi əxlaqa görə axirətdə bir qarşılıq alacaq. Həmçinin çətinliklər Allahın iman edənlərlə etməyənləri bir-birindən ayırdığı sınaq zamanlarıdır. Bir çox insan özünün müsəlman olduğunu, Allaha və axirət gününə iman etdiyini, Qurana tabe olduğunu deyər. Ancaq bu insanların böyük bir hissəsi Allah yolunda hər hansı bir çətinliklə qarşılaşdıqları vaxt dərhal üz döndərərlər. Məsələn, ticarətdən gələn gəlirinin azalmasından qorxan biri insanlara

Quran əxlaqını izah etmək üçün daha çox vaxt sərf etməli olduğu halda birdən sadəcə ticarəti ilə maraqlanmağa başlayar. Ya da möminlərin rifah içində olduqları dövrlərdə möminlərlə birlikdə olduqları halda, kiçik bir çətinlik baş verdikdə dərhal geri dönərlər. Məsələn, bəzi iman etməyən kütlələr möminlərə böhtan ilə və ya fiziki olaraq hücüm etdikləri vaxt bu vəfasız insanlar bir anda cəmiyyət içindəki etibarlarını, gələcəklərini düşünməyə başlayarlar. Və beləcə imanlarında səmimi olmadıqlarını göstərmiş olarlar. Əgər çətinlik anları olmasa bu insanlar bəlkə də ölənə qədər möminlərin arasında yaşayacaqlar və mömin olaraq tanınacaqlar. Əsl üzləri isə ancaq axirətdə ortaya çıxacaq. Ancaq çətinlik anları Allahın bir rəhməti olaraq, təmiz ilə murdarı bir-birindən ayırar. Allah ayələrində belə bildirir:

**Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin ...(Ali İmran surəsi, 166-167)**

Çətinlik anlarında pislər ayrılıb gedərkən, bu çətinliklərə böyük bir qətiyyətlə səbir edənlərin üzərinə Allah rəhmətini yayar. Mömінin üzərində səbir göstərdiyi hər çətinliyin böyük bir xeyiri və gözəlliyi meydana gələr. Hz. Yusif Mədrəsəsində olmaq da özü ilə bir çox çətinliyi gətirər. Hər şeydən əvvəl məruz qalınan rəftar, yaşanılan məkan, mömінin sevdiklərindən, digər möminlərdən ayrı qalması kimi bir çox mövzu hz. Yusif Mədrəsəsinin çətinliklərindəndir. Ancaq yaşanan hər çətinlik mömінin əxlaqının daha da gözəlləşməsinə vəsilə olmaqla yanaşı bir tərəfdən də cənnətin müjdəsi kimidir. Çünki çətinliklər qarşısında göstərilən gözəl rəftar Allahın razılığına, rəhmətinə və cənnətinə vəsilə olacaq. Allahın Quranda cənnətiylə müjdələdiyi möminlərin həyatlarında, çətinliklər və səbir göstərməli olduqları hadisələr olmuşdur. Allah çətinliklərin vəsilə olacağı gözəllikləri bir ayəsində belə bildirir:

**Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allahın köməyi nə vaxt gələcək?" - dedilər. Həqiqətən, Allahın köməyi yaxındır. (Bəqərə surəsi, 214)**

# Sıxıntı və çətinliklər gözəl əxlaq gətirər

Həyatı boyunca əziyyət görmüş, maddi və mənəvi çətinliklər yaşamış olan insanlar ümumiyyətlə digərlərinə görə daha incə düşüncəli, daha haldan anlayan kimsələr olarlar. Məsələn, maddi çətinliklər içində yetişmiş bir insan, sonradan sahib olduğu nemətlərin qiymətini daha yaxşı bilər, bu nemətləri verdiyi üçün Rəbbimizə həmişə şükür edər. Yaşadığı çətinliklər səbəbiylə daha təvazökar, mülayim və itaətkardır. İnsanlara çətinlik törədib əziyyət verməz, əksinə rahatlıqlarını düşünər, hər zaman gözəl xüsusiyyətlərini ön plana çıxarar. Hörmət və ehtiram mövzusunda qüsura yol verməz, qədirbiləndir. İsrafdan şiddətlə uzaq durar, başqasının malı belə olsa, bədxərclik etməz. Çətinliklərlə yaşamağa alışdığı üçün, nemətə qovuşduğu zamanlarda təkəbbür göstərməz, daim çalışqan və intizamlı olar. Aza qane olar, qənaətkardır.

Yuxarıda saydığımız xüsusiyyətlər bu kəslərdə təqdir edə bilən bütün insanların sevgi və hörmət etdiyi bir əxlaq gözəlliyi meydana gətirər. Xüsusilə haldan anlamaları bütün insanların qəlblərinin onlara isinməsinə səbəb olar. Məsələn, kasıb bir kimsə ilə qarşılaşdıqlarında rəftarından və üslubundan dərhal anlayarlar. O adam kasıbçılığını hiss etdirmək istəməsə belə bunu anlayar və ona bildirmədən, hər hansı bir əziyyət verməyib, qəlbini incitmədən ehtiyaclarını qarşılayar.

Qısacası, əziyyət və çətinliklərin gətirdiyi ən əhəmiyyətli qazanclardan biri əxlaqi yetişkinlikdir. Rahatlıq içində yaşayaraq bütün bu xüsusiyyətlərdən məhrum qalan insanların bir çoxu ümumiyyətlə səmimi olaraq inandıqları bir fikri müdafiə etmək üçün çətinlikləri gözə ala bilməzlər. Onların tək məqsədləri ehtiyaclarını qarşılamaq, rifah içindəki həyatlarını davam etdirə bilməkdir. Doğru bildiklərini müdafiə etmək mövzusunda qərarlı və səbirli bir rəftar sərgiləməzlər. İlk dəfə çətinliklə qarşılaşdıqları vaxt və ya rahatlıqlarının azacıq da olsa itəcəyi ehtimalı olduqda dərhal üz döndərərlər. Bu səbəblə, çətinliklərdən qaçmayıb onlara sinə gərmək üstün bir əxlaq xüsusiyyətidir və bu insanlar digərlərinə görə qat-qat daha üstündürlər. Ancaq bunu da qeyd etmək lazımdır ki, rahatlıq içində böyüməsinə baxmayaraq bir insan vicdanını və ağlını istifadə edərək yenə bu əxlaqi kamilliyə çata bilər. Burada verilən nümunələr çətinliklər içində böyüyən kəslərlə digərləri arasında ümumi fərqi vurğulamaq üçündür.

Hz. Yusif Mədrəsəsində baş verən çətinliklər isə möminlərin gözəl əxlaqlarının daha da güclənməsinə, imani və əxlaqi yetişkinliyə çatmasına vəsilə olar və beləcə möminlər üçün bir nemətə çevrilər.

# Hz. Yusif Mədrəsəsindəki çətinliklər nemətlərin qiymətinin daha yaxşı başa düşülməsinə vəsilə olar

Hz. Yusif Mədrəsəsi bir çox çətinliyin bir yerdə yaşandığı təhsil mühitidir. Aylarla, bəlkə də illərlə bir insanın dörd divar arasında yatıb qalxması, yalnız müəyyən şəxslərlə görüşə bilməsi, həbsxanadakı çətin şərtlər, təmizlik şərtləri, nəm və rütubətli mühit, yeməklər, həbsxanada olan insanların günahkarlardan, qatillərdən, canilərdən, oğrulardan və pis əxlaqlı kəslərdən ibarət olması, narahatlıq və etibarsızlıq mühiti, işığın düşmədiyi qaranlıq bir yer və daha bir çox əlaməti ilə ağıla ilk anda gələn çətinliklərdir. Məhz həbsxana mühitində bütün bu çətinliklər və daha minlərlə beləsi eyni anda insanın qarşısına çıxar. Bunlarla yanaşı dünya həyatındakı imtahanın bir davamı olaraq xəstəlik, maddi sıxıntılar kimi çətinliklər də üst-üstə gələ bilər.

İllərlə belə bir mühitdə qalan bir insan üçün bu şərtlərdə çox az yaxşılaşma belə böyük bir nemət və sevinc qaynağı olar. Məsələn, qaranlıq, işıqsız bir otaqda illərini keçirdiyi üçün, işıqlı və təmiz bir ev böyük bir nemətə çevrilər. Təmizlik, sağlam qidalanmaq, gözəl əxlaqlı insanlarla birlikdə olmaq, geniş bir ərazidə hərəkət edə bilmək hətta bir pəncərə belə çox böyük bir şükür vəsiləsi halına gələr. Bu imtahanı yaşamış bir insan bəlkə də digər kəslərdən çox daha güclü və səmimi olaraq Allaha verdiyi nemətlər üçün şükür edici olar.

Bir möminin hz. Yusif Mədrəsəsində qarşılaşdığı ən əhəmiyyətli çətinliklərdən biri isə daha əvvəl də ifadə etdiyimiz kimi digər möminlərlə görüşə bilməməsidir. Bir mömin üçün digər möminlər ən yaxşı və ən yaxın dost, bir yerdə olmaqdan, söhbət etməkdən, birlikdə Allahı zikr etməkdən, ittifaq içində Allahın dininə xidmət etməkdən çox zövq aldığı kəslərdir. Ancaq hz. Yusif Mədrəsəsində olmaq möminləri bir-birlərindən ayırar. Bu, əlbəttə ki, həm mədrəsədəki, həm də çöldəki möminlər üçün səbir edilməli olan bir vəziyyətdir. Ancaq bu vəziyyət hər iki tərəf üçün də bir daha bir-birləri üçün nə qədər əhəmiyyətli olduqlarını, Allahın bütün möminləri bir-birləri üçün bir nemət olaraq yaratdığını anlamalarına köməkçi olar. Möminlər əlbəttə ki, hz. Yusif Mədrəsəsindən əvvəl də bir-birlərinə qarşı böyük bir sevgi və hörmət ilə bağlıdırlar. Ancaq çətinlik anları, görüşmələrinin əngəlləndiyi anlar onların bu sevgi və bağlılıqlarının daha da canlanaraq güclənməsinə vəsilə olar. Belə bir vəziyyətdə tək bir möminin üzünü belə görmək böyük bir sevinc qaynağıdır.

Hz. Yusif Mədrəsəsində möminlərin qarşılaşa biləcəkləri çətinliklərdən biri də natəmizlikdir. Necə ki, Bədiüzzaman da mədrəsədəki çətinliklərdən bəhs edərkən xəstəliyini, yaşlılığını və diqqətliliyini saymışdır. Çünki möminlər mənəvi cəhətdən olduqları qədər fiziki cəhətdən də tərtəmiz insanlardır. Yaşadıqları evlərdən yedikləri

yeməklərə, bədənlərindən geyimlərinə qədər heç kimdə olmayan bir təmizliyə sahibdirlər. Ən çətin şərtlərdə belə təmizliyi bir ibadət olaraq qəbul etdikləri üçün təmizliklərinə diqqət göstərərlər. Məsələn, Quranda Kəhf qissəsində izah edilən Kəhf Əhli illərlə bir mağarada yatdıqdan sonra oyandıqları vaxt aralarından bir nəfəri yemək almağa göndərmişlər. Ancaq ona tapşırdıqları şeylərdən biri yeməklərin təmiz olanından almasıdır. (Kəhf surəsi, 19) Allah bir başqa ayəsində də hz. İbrahimə belə buyurmuşdur:

**Bir zaman Biz İbrahimə evin (Kəbənin) yerini nişan verib: "Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!" – demişdik. (Həcc surəsi, 26)**

Bir mömin üçün olduğu yer həbsxana belə olsa, bir məscid kimidir. Çünki mömin harada olursa olsun daim Allaha yönələr, 5 vaxt namazını qılar və bütün ibadətlərini yerinə yetirər. Bunun üçün də olduğu yer Allahın əmr etdiyi kimi "tərtəmiz" olar.

Əlbəttə ki, hz. Yusif Mədrəsəsində bu təmizliyi təmin etmək hər zamankından daha çətin olar. Bəlkə bir krandan axan bol və isti su yerinə, bir borudan sızan sudan istifadə ediləcək. Paltar bəlkə bir-iki ədəd olacaq, amma tərtəmiz olacaq. Ancaq mömin heç bir zaman olduğu vəziyyətdən şikayətçi olmaz. Heç bir zaman bir borudan axan su ilə təmizliyini təmin etməsini çətinlik olaraq görməz və bundan ötrü şikayətlənməz. Hətta bu sızan suyu Allahın özünə bir köməyi və neməti olaraq görər və sevinər. Allah ən çətin şərtlərdə belə sevdiyi qullarını gizli yollarla, heç kimin görə bilməyəcəyi incəliklərlə dəstəkləyən, onlara çətinlikləri asanlaşdıran, Rəhman və Rəhim olandır. Hz. Yusif Mədrəsəsindəki bir mömin daim Allahın özü üçün yaratdığı asanlıqları və gözəllikləri görər və bu onun coşğulu bir sevinc duymasına səbəb olar.

Bolluq və rifah içindəykən bəzi nemətlər fərq edilməyə bilər, hətta bir çox gözəllik gündəlik həyatın adi bir parçası olaraq görülə bilər. Ancaq hz. Yusif Mədrəsəsində olan bir insan üçün krandan axan bol və isti su, təmiz və işıqlı bir otaq, təmiz yeməklər, möminləri hər an görə bilmək dünya həyatında daim şükür edilməli olan gözəlliklərdəndir. Bədiüzzaman bunun sirrini bildiyi üçün tez-tez şagirdlərinə bu çətinliklərin gətirəcəyi gözəlliklər ilə sevinmək və bunlara şükür etməli olduqlarını, əsla şikayətçi bir rəftar göstərməməyi xatırlatmışdır.

"Ləzzətin yoxluğu əzab olduğu kimi, əzabın yoxluğu belə ləzzətdir. Bəli hər kəs keçmiş ləzzətli, səfalı günlərini düşünsə, kədər və həsrətin mənəvi əzabını hiss edib "Eyvah" deyər və keçmiş müsibətli, əzablı günlərini xatırlasa yoxluğundan mənəvi bir ləzzət hiss edər: "Əlhəmdülillah şükür, o bəla savabını qoyub getdi" –

deyər. Rahatlıqla nəfəs alar. Deməк ki, bir saat müvəqqəti əzab ruhda bir mənəvi ləzzət yaradar və ləzzətli saat əksinə əzab yaradar. Madam həqiqət budur və madam keçmişin müsibətli saatları, əzabları ilə birlikdə yox oldu və gələcək bəla günləri indi yoxdur və yoxdan əzab gəlməz. Məsələn, bir neçə gün sonra ac və susuz olmaq ehtimalından, bu gün o niyyətlə mütəmadi olaraq çörək yesə və su içsə, nə dərəcə divanəlikdir. Eynilə də keçmiş və gələcək əzablı saatlar -ki, yox olmuşlar- indi düşünüb səbirsizlik göstərmək və qüsurlu nəfsini buraxıb Allaha şikayət etmək kimi "Of, of" etmək divanəlikdir. Əgər sağa-sola yəni keçmiş və gələcəklərə səbir qüvvətini dağıtmazsa və hazır saata və günə qarşı tutsa, tam kifayət edər. Əziyyət ondan birə enər. Hətta, şikayət kimi başa düşülməsin, mən bu üçüncü Mədrəsə-i Yusifiyyədə bir neçə gün ərzində ömrümdə heç görmədiyim maddi və mənəvi, əziyyətli xəstəlik müsibətimdə, xüsusilə Nurun xidmətindən məhrumiyyətimdən gələn kədər, ürək və ruhdakı əziyyətlər məni əzdiyi sırada İlahi kömək bu izah edilən həqiqəti göstərdi. Mən də əziyyətli xəstəliyimdən və həbs olunmağımdan razı oldum. Çünki mənim kimi qəbir qapısında bir biçarəyə, qəflətlə keçə bilən bir saatını on ədəd ibadət saatları etmək böyük mənfəətdir deyə şükür etdim".[12]

# Çətinlik içində ikən edilən ibadətlərin dəyəri

Bədiüzzaman bir neçə dəfə hz. Yusif Mədrəsəsindəki ibadətlərin və mədrəsədə keçirilən vaxtın axirət həyatı üçün çox qiymətli və qazanclı olduğunu ifadə etmişdir. Bu, əlbəttə ki, hz. Yusif Mədrəsəsində olan möminlərə gözəl bir müjdədir. Bu mövzuyla əlaqədar sözlərindən bəziləri belədir:

"Ey həbs müsibətinə düşən biçarələr! Madam dünyanız ağlayır və şirin həyatınız acılaşdı; çalışın, axirətiniz də ağlamasın və qalan həyatınız gülsün, şirinləşsin, həbsdən istifadə edin. Necə bəzən ağır şərtlər altında düşmən qarşısında bir saat keşik çəkmək bir il ibadət hökmünə keçə bilər. Belə də, sizin ağır şərtlər altında hər bir saat ibadət zəhməti; çox saatlar olub, o zəhmətləri rəhmət çevirər".[13]

"Həbsdə keçən ömür günləri, hər bir gün on gün qədər bir ibadət qazandıra və müvəqqəti saatları, meyvələri cəhətiylə mənəvi olaraq sonsuz saatlara çevirə və beş-on il cəza ilə milyonlar il əbədi həbsdən xilas olmağa səbəb ola bilər. Məhz əhli-i iman üçün bu çox böyük və çox qiymətli qazanc şərti, fərz namazını qılmaq və həbsə səbəb olan günahlardan tövbə etmək və səbir içində şükür etməkdir. Onsuz da həbs çox günahlara manedir, meydan vermir".[14]

Bədiüzzamanın sözlərində də görüldüyü kimi, hz. Yusif Mədrəsəsi mömin üçün sevinc və şövqlə qarşılanar. “Az bir əziyyətlə, əbədi həbsdən xilas ola bilmək üçün” Allahın möminə verdiyi bir rəhmətdir əslində. Bundan əvvəlki mövzuda da bəhs edildiyi kimi hər ibadət daha çətin şərtlərdə yerinə yetiriləcək. Məsələn, Səid Nursi Risalə-i Nurları həbsdəykən içəriyə kağız buraxılmadığı üçün kibrit qutularının üzərinə yazdırmışdır. Bu, əlbəttə ki, son dərəcə məşəqqətli bir işdir. Bunların çöldəki yoldaşlarına çatdırılması və yenə onlar tərəfindən yazılma mərhələləri həmişə çətinliklər içində olmuşdur. Ancaq bu əməllərin qarşılığı düşünüldüyündə, hər çətinliyin sonsuza uzanan gözəlliklərə vəsilə olduğunu görmək olar. Allah ayələrində **“Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir”. (İnşirah surəsi, 5-6)** deyə bildirmiş və möminləri çətinliklərin ardından gələcək olan asanlıqlarla müjdələmişdir.

## Hz. Yusif Mədrəsəsi ixlasın daha da güclənməsinə vəsilə olar

Bir möminin ən əhəmiyyətli xüsusiyyətlərindən biri ixlası, yəni hər işini Allahın razılığını qazanmaq üçün etməsidir. İxlas sahibi bir mömin etdiyi hər hərəkətin hesabını axirətdə verəcəyini bilərək, Allahı ən çox məmnun edəcək rəftarı göstərər. Allah bir ayəsində möminlərin bu xüsusiyyəti üçün belə bildirmişdir:

**Həqiqətən, Biz onları sadiq ürəklə axirətdəki əsl yurdu düşünüb-anan ixlas sahibləri etdik. (Sad surəsi, 46)**

Allahın bildirdiyi ayədə “sadiq ürəklə” ifadəsi işlədilmişdir. İnanan bir adam hər etdiyində yalnız və yalnız Allahın razılığını qazanmağı hədəfləyər, bunun xaricində heç bir məqsədi, hədəfi, məmnun etmək istədiyi biri yoxdur. Məsələn, bir yoxsula kömək edən bir möminin tək məqsədi Allahın razılığını qazanmaqdır. Bunun xaricində, cəmiyyətdə etibar sahibi olmaq, ətrafındakı insanların təqdirini qazanmaq, iş mühitində etibarını artıraraq beləcə ticarətinin genişlənməsini təmin etmək kimi hədəfləri yoxdur. Halbuki iman etməyən bir insanın yardımlarda ümumiyyətlə, etibar və təqdir qazanmaq, ya da etdiyi yardımın verginin azalmasını təmin etmək kimi məqsədlər yatar. Möminlər isə xeyir iş görərkən bunu yalnız Allahın razılığını qazanmaq üçün edərlər, çünki yalnız ixlasla edilən əməllər Allah qatında keçərlidir.

Hz. Yusif Mədrəsəsi möminlərin bütün əməllərində ixlaslı olmalarına vəsilə olan bir yerdir. Buradakı tərbiyənin ən əhəmiyyətli təsirlərindən biri insanın nəfsi üzərində olar, çünki həbsdə yaşayan bir adamın hər hansı bir dünyəvi mənfəəti ola bilməz. Hər etdiyi dörd divar arasında qalır. Kimsəyə göstəriş etmək imkanı da yoxdur. Nə etdiyi xidmət, nə söylədiyi bir söz, nə də ibadətləri ilə digər insanlardan maraq, təqdir, təşviq, tərif gözləmək kimi bir vəziyyətdən söhbət belə gedə bilməz. Hər etdiyini yalnız Allah bilər və Allah görər. O da bunu bildiyi üçün sidqi-ürəkdən və könüldən Allaha yönələr. Allah Quranda bu insanlardan belə bəhs edir:

**Tövbə edənlər, əməllərini islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər istisnadır. Bunlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat verəcəkdir. (Nisa surəsi, 146)**

**Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Şübhəsiz ki, Allah istədiyini sapdırır. Tövbə edib Ona üz tutan kimsəni isə doğru yola yönəldir". Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 27-28)**

Ayələrdə də bildirildiyi kimi, yalnız Allaha üz tutub yönələn, hər şeyi Allah rizası üçün edən bir insan tək dostu və himayədarı olan Allaha sığınar və yalnız Allahın razılığını istəyər. Bədiüzzaman, hz. Yusif Mədrəsəsinin bir hikmətinin də, dünya ilə olan bütün əlaqələrin kəsilməsinə səbəb olması və ixlas dərsinin tam olaraq alınması olduğunu bildirir:

"Əziz, sıddık (doğru danışan) qardaşlarım!

... Lakin İlahi qədər isə, mənfəətimiz üçün buraya sövq etdi və köhnə zamanlarda ixtiyari çiləxanaların savab nöqtəsində çox fövqündə savabdar etmək sirri ilə, bizi ixlas dərsini tam almaq və həqiqətən qiymətsiz olan dünya işlərinə qarşı əlaqələrimizi düzəltmək üçün yenə Mədrəsə-i Yusifiyyəyə çağırdı." [15]

Səid Nursi bir başqa sözündə isə hz. Yusif Mədrəsəsindəki çətinliklərə şahid olanların tam ixlası əldə etdiklərini, dünyəvi və şəxsi maraqlara tənəzzül etməyəcəklərini belə ifadə edir:

"Bəli Mədrəsə-i Yusifiyyədə çox işarələrlə hər çətinlik və zəhmətin on, bəlkə yüz misli maddi və mənəvi fayda və gözəl nəticələr və imana geniş və xalis xidmətlər, gözləriylə gördüklərindən tam ixlasa müvəffəq olarlar, daha az və şəxsi mənfəətlərə tənəzzül etməzlər". [16]

# Mömin hz. Yusif Mədrəsəsində sidqi-ürəklə Allaha yönələrək dua edər

Mömin tək həqiqi dost və köməkçisinin, tək hökm sahibinin Allah olduğuna iman edər. Həyatı boyunca hər hadisədə Allaha yönələr və yalnız Allahdan kömək istəyər. Mömini dua mövzusunda digər insanlardan ayıran ən diqqətə çarpan xüsusiyyətlərindən biri, onun rifah içində olanda da, çətinlik anında da heç bir fərq olmadan Allaha şükür etməsi və Ona dua etməsidir.

İmanı zəif, qəlbində xəstəlik olan kəslər ümumiyyətlə bir çətinlik anında Allaha ürəkdən, yalvara-yalvara, səmimi dua edərlər. Dualarında bir şübhə və ya təkəbbür olmaz, yalnız Allahın kömək edə biləcəyini bilərək Allaha dua edərlər. Məsələn, çox şiddətli bir zəlzələ anında hər insan Allaha qarşı nə qədər aciz olduğunu, o anda özünü yalnız Allahın köməyinin qurtara biləcəyini görər və sidqi-ürəkdən yalvararaq Allaha yönələr. Ancaq möminlər, digər insanlardan fərqli olaraq, çətinlik anında necə Allaha yönəlib sidqi-ürəkdən dua edirlərsə, başlarındakı çətinlik getdikdən sonra da eyni şəkildə dualarına davam edərlər.

Hz. Yusif Mədrəsəsindəki bir mömin də özünü həbsdən xilas edə biləcək tək gücün Allah olduğunu, Allahın hökm verənlərin ən xeyirlisi olduğunu bilər. Bu səbəblə, xilas olmağı Allahdan istəyər. Hz. Yusifdə olduğu kimi bütün səbəblərə sarılar, o necə yoldaşıyla hökmdara xəbər yolladısa, o da yaşadığı dövrün tələb etdiyi bütün tədbirləri alar. Ancaq bütün hadisələrin necə həyata keçəcəyini müəyyən edən Allah olduğuna qəti olaraq iman edər. Hz. Yusif də inkarçıların qurduqları bir hiylə ilə qarşı-qarşıya gəldiyini anladığı vaxt Allaha dua etmiş və Allah onun duasını qəbul etdiyini belə bildirmişdir:

**Yusif dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən mən onlara meyil edər və cahillərdən olaram". Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir. (Yusif surəsi, 33-34)**

# Hz. Yusif Mədrəsəsi mömin üçün bir növ inzivaya çəkildiyi bir mağaradır

Keçmişdə yaşamış bir çox İslam alimi, həyatlarının bəzi dövrlərində dünyəvi bütün işlərini və əlaqələrini buraxaraq, qapalı məkanlarda inzivaya çəkilmişlər. Əslində inzivaya çəkilmək sözü bir insanın özünü dünyəvi hər şeydən çəkib, xalis və ürəkdən Allaha yönəlməsini, dərin-dərin təfəkkür edərək, Quran elmində və mənəviyyatında dərinləşməsini, hidayətinin artmasını və kamil bir imana sahib olmasını ifadə edər. Allah Quranda Peyğəmbərimiz (s.ə.v)-ə belə buyurmuşdur:

**Şübhəsiz ki, gündüz sənin üçün uzun-uzadı işlər vardır. Rəbbinin adını zikr et və özünü tamamilə Ona həsr et! (Müzzəmmil surəsi, 7-8)**

Allahın ayələrində də bildirdiyi kimi, hər insanın gündüz edəcəyi çox işləri vardır. Məsələn, Allah yolunda çalışan bir mömin gündüzləri Quran əxlaqını başqa insanlara izah etmək, insanların ürəyini dinə isidib, dövlətə və millətə xeyir gətirəcək faydalı işlər görmək, digər möminlərlə görüşmək, onlarla müxtəlif mövzularda məsləhətləşmələr aparmaq, söhbət etmək kimi bir çox mövzu ilə məşğul olar. Bunlarla yanaşı, ticarət ya da fərqli gəlir gətirən işlərlə də maraqlana bilər. Əlbəttə ki, bütün bunları edərkən Allahı heç bir zaman unutmaz, daim Allahın əmr və qadağalarına uyar, sərhədlərini qoruyar. Ancaq insanın dərin-dərin Allahın yaratdıqları üzərində düşünməsi, axirəti, qiyamət gününü, cənnət və cəhənnəmi təfəkkür etməsi, Quran ayələrini oxuyaraq Quranın sirlərinin və hikmətlərinin özünə aydın olması üçün bütün bu məşğuliyyətlərdən sıyrılması, zehnini yalnız bu mövzulara cəmləşdirməsi, Allahın ayəsində bildirdiyi kimi "özünü hər şeydən uzaqlaşdırması" lazımdır. Tarix boyunca bir çox İslam alimi Quran elmində və Allaha yaxınlıqda dərinləşmək və kamil bir imana sahib olmaq üçün həyatlarının bəzi dövrlərində qapalı məkanlara çəkilməyi uyğun görmüşlər.

Bu tərz məkanlara Quranın bir çox yerində diqqət çəkilmişdir. Məsələn, Quranda bəhs edilən mağaralarda olan möminlər həmişə küfrün təzyiqindən xilas olmaq üçün bu məkanlara sığınmışlar və Allah onların üzərinə rəhmətini yaymışdır. Peyğəmbərimiz (s.ə.v) də yanındakı yoldaşıyla birlikdə Məkkədən çıxarılarkən bir mağaraya sığınmışdır. Bu hadisə Quranda belə xəbər verilir:

**Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz**

**döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 40)**

Ayədə verilən nümunədə görüldüyü kimi Allah, Öz razılığı üçün yaşayan və bu yolda müxtəlif çətinliklərə sinə gərən bütün möminlərə işlərində asanlıq yaradar. İnkarçıların "artıq bitdi" dediyi yerdə möminlər Allahın dəstəyi ilə müvəffəqiyyət qazanar. İnkarçılar çaşqınlıq içində bunun necə olduğunu düşünər, buna görə də müsəlmanların arxasında hansı qüvvələr olduğu haqqında təxminlər irəli sürməyə başlayarlar. Ancaq bu insanlar Allahın müsəlmanların tək köməkçisi olduğu həqiqətindən qafildirlər.

Quranda, küfrün ağır təzyiqləri nəticəsində mağaraya sığındığı bildirilən bir başqa mömin birliyi isə Kəhf əhlidir. Kəhf əhlinin inkar edən bir birlikdən qopub ayrılaraq, mağaraya sığındıqlarını və Allahın onlara rəhmətini yaydığını bildirən ayələr belədir:

**Yoxsa sən Kəhf və Rəqim əhlinin möcüzələrimizdən ən qəribəsi olduğunumu güman edirsən? Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər. Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik). (Kəhf surəsi, 9-11)**

**Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 16)**

Diqqət edilsə, Allah mağaraya sığınan möminlərə rəhmətindən bol-bol vermiş və onların işlərini asanlaşdırmışdır. Quranda mağara möminlərə xeyir gətirən bir yer olaraq bildirilir. İslam alimləri isə mağaranın bu mənəvi yönünü nəzərə almış və mağaradakı çətin şərtlər ilə nəfslərini daha çox tərbiyə etmək, dünyəvi ehtiraslardan tamamilə təmizlənə bilmək üçün bəzi dövrlərdə buralarda olmağı uyğun görmüşlər.

Bədiüzzaman Səid Nursi də gəncliyində həmişə bir gün mağarada inzivaya çəkilməyi düşünmüş və istəmiş, hətta Birinci Dünya müharibəsində əsir düşdüyü vaxt xilas olduğu təqdirdə inzivaya çəkilməyə qərar vermişdir. Bədiüzzaman bu istəyini bir yerdə belə dilə gətirir:

"Mən iyirmi yaşında ikən təkrar-təkrar deyərdim: "Keçmişdə mağaralara çəkilən tərki-dünyalar kimi axır ömrümdə mən də bir mağaraya, bir dağa çəkilib,

insanların həyat-ı ictimaiyyətindən çıxacağam. "Həm köhnə Harb-i Umumidə şərq-i şimalidəki əsarətimdə qərara gəlmişdim ki: "Bundan sonra ömrümü mağaralarda keçirəcəyəm. Siyasət həyatından və ictimaiyyətdən sıyrılacağam. Artıq qarışmaq yetər" deyərkən, inayət-i Rəbbaniyə, həm ədalət-i qədəriyə təcəlli etdilər". [17]

Bədiüzzaman Səid Nursi, bu istəyinin Allahın diləməsi və rəhməti ilə ən gözəl şəkildə reallaşdığını, dəfələrlə girdiyi hz. Yusif Mədrəsəsinin özü üçün bir növ mağara vəzifəsi gördüyünü və orada zahid bir həyat yaşadığını qeyd etmişdir. Hz. Yusif Mədrəsəsi Bədiüzzaman üçün bir inziva imkanı yaratmaqla gözəl bir nemətə çevrilmişdir. Bir başqa sözündə Bədiüzzaman hz. Yusif Mədrəsəsinin ibadət baxımından qiymətini və zahid bir həyat üçün uyğun bir məkan olduğunu belə ifadə etmişdir:

"Əgər məhbus, zülmən məhkum olmuş isə, fərz namazını qılmaq şərtiylə, hər saatı bir gün ibadət olduğu kimi, o həbs onun haqqında bir tənhalığa çəkilmək üçün çiləxana olub keçmişdə mağaralara girərək ibadət edən zahid salehlərdən sayıla bilərlər". [18]

Bədiüzzaman, bir başqa sözündə isə hz. Yusif Mədrəsəsindəki həyatının inzivaya çəkilmək kimi olduğunu, hətta bir mağarada inzivada olmaqdan daha çox xeyir və gözəlliklərə vəsilə olmasını ümid etdiyini isə belə açıqlamışdır:

"... Əhli-i riyazət və zahidlərin dağlardakı mağaralarının çox üstündə "Yusifiyyə Mədrəsələri" və vaxtımızı zay etməmək üçün təcridxanaları verdi. Həm mağara axirət faydası, həm Quran və iman həqiqətlərinin mücahidanə xidmətini verdi ... "Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli olar (Bəqərə surəsi, 216) və "Xeyir, Allahın seçdiyi şeydədir" sirri ilə qocalığıma mərhəmətdən və iman xidmətində daha çox işlətmək üçün yaşlı və qüdrətimizin xaricində bu üçüncü Mədrəsə-i Yusifiyyədə vəzifə verildi". [19]

Bədiüzzamanın da ifadə etdiyi kimi, özü yaşlı və xəstə olduğu üçün mağaradakı yaşayış son dərəcə çətin olacaqdır. Ancaq həbsxana şərtləri bir insanın özünü hər şeydən uzaq tutub Allaha yönəlməsi baxımından bir rəhmətdir. Həmçinin Bədiüzzamanın bəhs etdiyi illərdə özü bir otaqda təcrid edilmiş, hətta bütün qapı və şüşələri tamamilə bağlanıb və beləcə tək bir adam ilə göz-gözə gəlməsi belə əngəllənmişdir. Olan bitənləri çöldən izləyən bir adam bunu heç şübhəsiz bir zülm olaraq qiymətləndirər. Ancaq Bədiüzzaman hər zamankı kimi başına gələnlərə iman gözüylə baxmış və dərhal Allahın özü üçün yaratdığı xeyiri görmüşdür. Çünki təcrid edilərək heç kimlə görüşməməsi onun Quran elmi və təfəkkür üzərində daha da dərinləşməsi, diqqətinin heç bir şeylə dağılmaması ilə nəticələnmişdir. Bütün bunlar Bədiüzzaman üçün çox böyük gözəlliklərlə nəticələnmiş, son dərəcə faydalı olmuşdur.

Bu əsnada Quran xidmətindən də geri qalmamış, təfəkkürlərinin nəticəsi olan Risalə-i Nurları fürsət tapdıqca həbsxanadakı tələbələrinə yazdırmışdır. Hətta elə ki,

həbs müddəti bitdikdə çölə çıxmamaq üçün vəsilə axtarmış, ancaq Allahın hikməti ilə, sərbəst qaldıqdan qısa bir müddət sonra təkrar hz. Yusif Mədrəsəsinə geri qayıtmışdır. Bədiüzzamanın hər zaman ifadə etdiyi kimi, demək ki, hz. Yusif Mədrəsəsində özü üçün hələ böyük xeyirlər vardır ki, Allah onu mədrəsədə saxlamışdır.

Hz. Yusif Mədrəsəsində olan Nur tələbələrini Əshab-ı Kəhfə bənzədən Bədiüzzaman onların da hz. Yusif Mədrəsəsini Əshab-ı Kəhfin mağaralarına çevirdiklərini ifadə etmişdir. Bunun mənası Allahın Kəhf Əhlinə mağarada yaydığı rəhmət və işlərindəki asanlığın, Nur tələbələrinə də çatmasıdır. Din əxlaqından uzaq insanların bir cəza olaraq möminləri yerləşdirdikləri yer onların nəfslərini ən çox tərbiyə etdikləri, Allaha daha dərin bir imanla bağlandıqları, ürəklərinə səbrin və qətiyyətin verildiyi bir yerə çevrilmişdir. Bədiüzzamanın hz. Yusif Mədrəsəsini Əshab-ı Kəhfin mağarasına bənzətdiyi sözü belədir:

“... Və Əshab-ı Kəhf kimi Nur tələbələri o əziyyətli çiləxananı Əshab-ı Kəhf və köhnə zaman əhli-i riyazatının mağaralarına çevirməsi və istirahət-i qəlblə Nurların nəşrinə və yazmasına səyləriylə, inayət-i Rabbaniyənin imdadımıza yetişdiyini isbat etdi. "[20]

Bədiüzzaman bir başqa sözündə isə hadisələrin zahiri ilə həqiqətini çox səmimi və açıq bir dillə izah etmişdir. Bədiüzzaman bu sözlərində mağarada inzivaya çəkilmişkən Barlaya sürgün olunduğunu, ancaq Barlanı Allahın rəhməti sayəsində özü üçün həm daha təhlükəsiz, həm də daha ixlaslı bir inziva yerinə çevrildiyini söyləmişdir.

“Siyasəti tərk edərək və özümü dünyadan təcrid edərək bir dağın mağarasında axirəti düşünməkdə ikən, əhl-i dünya zülmlə məni oradan çıxarıb sürgün etdilər. Xaliq-i Rəhim və Hakim o sürgünü mənim üçün bir rəhmətə çevirdi. Təhlükəli və ixlası pozacaq səbəblərə məruz qaldığım o dağdakı inzivanı; təhlükəsiz, ixlaslı Barla dağlarındakı xəlvətə (tənhalığa) çevirdi. Rusiyada əsarətdə ikən niyyət etdim və niyaz etdim ki, axır ömrümdə bir mağaraya çəkilim. Ərhamurrahimin mənə Barlanı o mağara etdi, mağara faydasını verdi. Lakin çətin mağara zəhmətini zəif bədənimə yükləmədi... Həm əhli-i dünya bütün pislərə vəsiqə verdiyi və caniləri həbsdən çıxarıb əfv etdikləri halda, mənə zülm olaraq vermədilər. Mənim Rəbb-ı Rəhimim, məni Quranın xidmətində çox məşğul etmək və Sözlər namıyla ənvar-ı Quraniyəni mənə çox yazdırmaq üçün, səssiz bir surətdə məni bu qürbətdə buraxıb, bir böyük mərhəmətə çevirdi... "[21]

Bədiüzzamanın bu təfəkkürləri bir mömin üçün son dərəcə əhəmiyyətlidir. Çünki hadisələrin zahirinə baxılsa, Bədiüzzaman heç bir günahı olmadığı halda Barlaya sürgünə göndərilmiş, bir-iki qohumu xaricində heç kimsə ilə görüşməsinə icazə verilməmiş, Quran xidmətində olması, hətta yaxınlarına məktub yazması belə

əngəllənmişdir. Bundan əlavə o dövrdə cinayətkarlar, qatillər belə bağışlandığı halda, Bədiüzzaman əfv edilməmişdir.

Bunlar hadisələrin görünən tərəfidir. Həqiqət olan isə Allah Bədiüzzamanı mağaradakı inzivasından alıb, özü üçün daha təhlükəsiz, səhhəti üçün daha uyğun olan Barlaya gətirmişdir. Allah bəzi kəslərin Bədiüzzamana olan düşmənçiliyini vəsilə edərək, Barlanı bir inziva məkanına çevirmişdir. Bu kəslərin qadağaları vəsilə olmuş, Bədiüzzaman heç kimlə görüşməmişdir. Bunun sayəsində Bədiüzzamanın da dediyi kimi; "Mənim Xaliq-i Rəhimim o təcridi, mənim haqqımda bir əzm rəhmətə çevirdi. Zehnimi təmiz saxlayıb, Quran-ı Hakimin feyzini olduğu kimi almağa vəsilə etdi".[22]

Hz. Yusif Mədrəsəsində olan hər mömin hadisələrin həqiqətinə baxmalıdır. Bu hadisələr zahirində Bədiüzzamanın da ifadə etdiyi kimi möminə düşmənliyi olan kəslərin səbəb olduğu bir cəzalandırma olaraq görülsə də, həqiqətdə Allah səmimi bir müsəlmanın üzərindəki rəhmətini yaymaq və işində bir asanlıq yaratmaq üçün onu bu zahidlərin yaşadıqları mağaraya və ya alimlərin yetişdikləri mədrəsəyə yerləşdirmişdir. Zahirdə zülm kimi görünsə də, həqiqətdə mömінin üzərində Allahın rəhməti və razılığı vardır.

Məhz bu səbəblə, hz. Yusif də özünə böhtanlarla hiylə quran qadına və onun ətrafının intriqalarına uymaqdansa həbsə düşməyin özünə daha xoş gələcəyini söyləmişdir. Ardından da Allahdan onların hiylələrini özündən uzaqlaşdırmasını dua ilə istəmişdir. Allah onun duasını qəbul etmiş və onu həbsxanaya yerləşdirmişdir. Həqiqət istiqaməti ilə baxıldıqda həbs hər istiqamətiylə inkarçıların təkliflərindən daha xoşdur.

Hz. Yusif Mədrəsəsində olan bir mömin də mütləq hadisələri özünü və həqiqət istiqamətlərini düşünərək qiymətləndirməlidir. Hər nə qədər zahirdə mömінin düşmənləri ona hiylə qurmuş, ona böhtan ataraq haqsız yerə günahlandırmışlarsa da, iman edən bir insan bilir ki, hz. Yusif Mədrəsəsindəki yeri o daha doğulmadan, hətta ana və atası belə doğulmadan əvvəl ayrılmışdır. Hz. Yusif Mədrəsəsinə nə vaxt girəcəyi, oradan nə vaxt və nə vəsilə ilə çıxacağı, ona hansı inkarçının hansı sözü söyləyəcəyi, hz. Yusif Mədrəsəsində hansı yeməkləri yeməsi kimi incəliklərin hamısı Allah qatında bəllidir.

Məhz bu həqiqətlərin şüurunda olan və hər şeyə iman gözü ilə baxan, daim Allaha yönələrək qədərin izləyicisi olan bir adam üçün hz. Yusif Mədrəsəsində baş verən hadisələr böyük bir rəhmətə çevrilər.

# MÖMİN HZ. YUSİF MƏDRƏSƏSİNDƏ HƏM ŞAGİRD, HƏM DƏ MÜƏLLİMDİR

Hz. Yusif Mədrəsəsində olan bir mömin oradakı çətinliklərlə təlim aldığı kimi özü də ətrafındakıları öyrədər. Allah möminlərə insanlara yaxşılığı əmr etməyi, onları pisliklərdən çəkindirməyi əmr etmişdir. İnanan insanların dünyadakı ən əhəmiyyətli vəzifələrindən biri Allahın bu əmrinə uyaraq insanlara Quran əxlaqını izah etmələri, onların pis xasiyyətlərini Allahın məmnun olacağı yaxşı xasiyyətlərə çevirmələri üçün yol göstərmələri, ibadətlərini yerinə yetirmələri üçün təşviq edərək axirəti xatırlatmalarıdır. Allah Quranda, **"Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır". (Ali İmran surəsi, 104)** ayəsiylə insanlar arasında hər dövrdə mütləq olan bir birliyə diqqət çəkmişdir.

Hz. Yusif Mədrəsəsində olan bir mömin əgər imkanı və icazəsi varsa bu məsuliyyətin gərəyini yerinə yetirər. Üstəlik həbsxana yaxşılığın əmr edilməsinə və pislikdən çəkindirilməyə, axirətlə və Allah qorxusu ilə xəbərdar edilməyə ən çox ehtiyac duyan kəslərin olduğu bir yerdir. Burada olan cinayət törətmiş insanların böyük bir hissəsi əgər Allahdan lazım olan kimi qorxub çəkinsələr, orada olmazlar. Bu kəslərin həyatlarının geri qalan hissəsini hüzur və təhlükəsizlik içində keçirmələrinin, dövlətə və millətə faydalı insanlara çevrilə bilmələrinin tək yolu onların Allahdan qorxan, Allaha ibadət edən, Quran əxlaqına uyan, mülayim, hüzurlu, ədalətli, vicdanlı və mərhəmətli insanlar olmalarıdır. Bu səbəblə hz. Yusif Mədrəsəsindəki bir möminin, imkanı olduğu təqdirdə, buradakı şəxslərə Quranla öyüd-nəsihət verməsi həbsxananı onlar üçün də gözəl bir dərshanəyə, məhsuldar bir tərbiyə evinə çevirəcək. Bu şəkildə həbsə qatil, fırıldaqçı və ya cani olaraq girən biri cənnətə girməyi ümid edən, Allahın razılığını və rəhmətini uman, Allahdan qorxub çəkinən, dövlətinə və millətinə xeyir gətirməyi qarşısına məqsəd qoyan mömin bir kimsə olaraq çıxacaq.

Həmçinin unutmamaq lazımdır ki, hz. Yusif Mədrəsəsində bir möminin insanları Allaha çağırması, möminlərə hz. Yusifdən miras qalan davranış gözəlliyidir. Hz. Yusif həbsxanada ikən ona gördükləri yuxuların yozumunu soruşan həbsxana yoldaşlarına əvvəlcə Allahı, Allahın birliyini və dini izah etmiş, daha sonra suallarını cavablandırmışdır. Bu hadisələri xəbər verən ayələrdə belə buyurulur:

**Onunla birlikdə iki gənc də zindana salındı. Onlardan biri dedi: "Mən yuxuda gördüm ki, üzümdən şərab sıxıram". Digəri isə belə dedi: "Mən gördüm ki, başımın üstündə çörək aparıram, quşlar da ondan dimdikləyib yeyir. Bunun yozumunu bizə bildir. Həqiqətən, Biz səni yaxşı adam hesab edirik". O dedi: "Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və bütün insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir. Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Tək olan, hər şeyə Qalib gələn Allah? Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir". (Yusif surəsi, 36-40)**

Bədiüzzaman da həbsxanada olduğu müddətcə həm yanındakı tələbələrini, həm də digər məhkumları öyrətmiş, onlara Risalə-i Nurlardan dərs vermişdir. Hətta demək olar ki, Nur tələbələri həbsdəykən iki dəfə hz. Yusif Mədrəsəsində olmuş kimidirlər. Çünki həm həbsxananın tərbiyəsini almışlar və onun mənəvi dərəcəsini qazanmışlar, həm də həbsxanada Ustadları Səid Nursi ilə gecə-gündüz birlikdə olaraq onun üstün elmindən faydalanmışlar. Bədiüzzamanın hikmətli təfəkkürlərində, gözəl halından hal alaraq təlim almışlar. Bu səbəbdən Ustadları ilə birlikdə həbsdə olan Nur tələbələrinin təhsilləri çox məhsuldar olmuş, kamil imana çatmaları, xasiyyətlərini gözəlləşdirmək baxımından çox fayda gətirmişdir.

Mömin olduğu hər yerə asayiş, təhlükəsizlik, hüzur və gözəllik gətirər. Möminin gözəl əxlaqı və üstün rəftarı da eynilə bir elektrik axını kimi yayılar və ətrafındakıları da təsiri altına alar. Heç danışmasa belə halı, rəftarı, baxışı, duruşu, qənaətkarlığı, şərəfli olması, təvəzökarlığı, təmizliyi, səmimiyyəti, heç bir dünyəvi ehtirasının olmaması, hər vəziyyətdə şən, canlı, şövqlü və gülərüz olması onu görən hər insanın üzərində müsbət bir təsir yaradar. Məsələn, həbsdə olmaqdan ötrü şikayət edən, ağlayan, sızlayan, ümidsizliyə qapılan bir insan möminin həbsxanada olmanın saysız xeyiri və hikməti olduğu, əsl həyatın axirət həyatı olduğu üçün dünyada olanların bir əhəmiyyətinin olmadığı istiqamətindəki sözlərini eşitsə, mütləq bu sözlər üzərində düşünər və bəlkə də vicdanlı davranaraq rəftarını dəyişdirər. Və ya ən çətin şərtlərdə belə gülümsəməsini üzündən əskik etməyən, təvəkkülünü və Allahdan daim razı olduğunu bu şəkildə mömin qardaşlarına və onu görən bütün insanlara hiss etdirən bir müsəlmanın halından bütün insanlar təsirlənər. Kiçik bir tərsliklə qarşılaşdıqlarında belə çaxnaşma salanlar onun bu qeyri-adi halını gördükdə etdiklərindən ötrü utanar və hal alarlar.

Mömin rəftarı ilə olduğu qədər fəaliyyətləri ilə də içində olduğu cəmiyyətin hüzur və təhlükəsizlik içərisində, Allahın sərhədlərinə bağlı olmasını, fərdlərin dövlətə və millətə xeyir gətirən insanlar olmalarını təmin etməyə çalışar. Məsələn, bir cəmiyyətdə narahatlıq yaradan, anarxiya və terrora səbəb olan fikir axınlarını Quranın gücüylə susdurmağa çalışar. Bədiüzzaman rəhbərliyindəki Nur fəaliyyətləri möminlərin bu səylərinin yaxın tariximizdəki nümunələrindəndir. Bədiüzzaman anarxiyanın səbəblərinin materializm kimi dinsiz fikir axınları olduğunu daim dilə gətirmiş və dinsizliyə qarşı çox təsirli bir mübarizə aparmışdır. Bu səbəblə, Nur tələbələri asayişin təmin edilməsində göstərdikləri töhfələrlə tanınırlar. Bu xüsusiyyətləri həbsdəykən də davam etmiş və xüsusilə Dənizli həbsi zamanı bütün məhkumların iman əhli olmalarına, Quran əxlaqını mənimsəmələrinə vəsilə olmuşlar. Bədiüzzaman bu haqda belə qeyd edir:

“Bəli kommunist pərdəsi altında anarxiyanın, ümumi təhlükəsizliyi pozmağa dəhşətli işinə qarşı, Risalə-i Nur və tələbələri gerçək iman qüvvəsi bu vətənin hər tərəfində o fövqəladə pozulmağı dayandırır və qırır.Təhlükəsizlik və asayişi təmin etməyə çalışır ki, bir çox bir kəsrətdə və məmləkətin hər tərəfində olan Nur tələbələrindən, bu iyirmi ildə əlaqədar üç-dörd məhkəmə və on vilayətin polisləri, təhlükəsizliyin pozulması dair bir hadisə tapmamış və qeyd etməmişlər. Və üç vilayətin insaflı bir qisim polisləri demişlər: "Nur tələbələri mənəvi polisdir. Asayişi mühafizədə bizə kömək edirlər. Həqiqi iman ilə; Nuru oxuyan hər adamın başında bir gözətçi buraxırlar, təhlükəsizliyi təmin etməyə çalışırlar. "Bunun bir nümunəsi Dənizli Həbsxanasıdır. Oraya Nurlar və o məhbuslar üçün yazılan Meyvə Risaləsi girməsiylə, üç dörd ay ərzində iki yüzdən çox o məhbuslar elə fövqəladə itaətli, dindar olaraq doğru hal aldılar ki; üç dörd adamı öldürən bir adam, taxta bitlərinə öldürməkdən çəkinirdi. Tam mərhəmətli, zərərsiz, vətənə faydalı bir üzv olmağa başladı. Hətta rəsmi məmurlar, bu hala heyrətlə və təqdirlə baxırdılar. Həm daha hökm almadan bir qisim gənclər dedilər: "Nurçular həbsdə qalsalar, biz özümüzü məhkum etdirəcəyik və cəza almağa çalışacağıq; ta onlardan dərs alıb onlar kimi olacağıq. Onların dərsi ilə özümüzü islah edəcəyik. "Məhz bu mahiyyətdə olan Nur tələbələrini, təhlükəsizliyi pozmaq ilə günahlandıranlar, hər halda və çox pis bir surətdə aldanmış və ya aldadılmış və ya bilərək və ya bilməyərək anarxistlik hesabına hökuməti aldadıb bizləri əziyyətlərlə əzməyə çalışırlar." [23]

Bədiüzzaman başqa bir sözündə isə Nur tələbələrinin digər kəslərlə danışmalarının qadağan olmasına baxmayaraq hal və rəftarları ilə təbliğ etdiklərini söyləmiş və hətta həbsxanadakıları Quran əxlaqı ilə tərbiyə etməyi təklif etmişdir:

"Qədər-i İlahi ədaləti bizləri Dənizli Mədrəsə-i Yusifiyyəsinə sövq etməsinin bir hikməti, hər yerdən çox Risalə-i Nura və tələbələrinə həm məhbusları, həm əhalisi, bəlkə həm məmurları və ədliyyəsi möhtac olmalarıdır. Buna görə, biz bir imani və axirət ilə əlaqədar vəzifə ilə bu çətin imtahana girdik. Bəli iyirmi-otuzdan ancaq bir-ikisi qaydalarına uyğun namazını qılan məhbuslar içində birdən Risalə-i

Nur tələbələrindən qırx-əllisi ümumiyyətlə istisnasız mükəmməl namazlarını qılmaları, rəftar və hərəkət diliylə elə bir dərs və irşaddır ki, bu çətinlik və zəhməti heçə endirər, bəlkə sevdirər. Və tələbələr davranışları ilə bu dərsi verdikləri kimi, qəlblərindəki qüvvətli təhqiqi imanları ilə belə buradakı əhli-i imanı əhli-i dəlalətin yanlış fikir və şübhələrindən qurtarmalarına səbəb poladdan bir qala hökmünə keçəcəyini rəhmət və İlahi yardımdan ümid edirik."

Buradakı əhli-i dünyanın bizi danışmaqdan və təmasdan əngəlləri zərər vermir. Rəftar dili, sözdən daha qüvvətli və təsirli danışır. Madam həbsə girmək tərbiyə üçündür. Milləti sevirlər isə, məhbusları Risalə-i Nur tələbələriylə görüşdürsünlər; bir ayda, bəlkə bir gündə bir ildən çox tərbiyə alsınlar. Həm millətə və vətənə, həm öz istiqballarına və axirətinə mənfəətli bir insan olsunlar. "[24]

Bədiüzzaman bəzən də həbsxanadakı keçmiş məhkumlara birbaşa səslənmiş, onları Allahın yoluna çağırmış və bəzi pis xüsusiyyətlərindən imtina etmələrini, möminlər kimi daim bağışlama yolunu mənimsəmələrini xatırlatmışdır. Bədiüzzaman aşağıda qeyd edilən sözündə həbsə girmələrinin hikmətlərindən birinin də bu məhkumları Risalə-i Nurlarla öyrətmək ola biləcəyini söyləmişdir:

“Əziz yeni qardaşlarım və köhnə məhbuslar!

Mənim qəti qənaətim gəldi ki, buraya girməyimizin İlahi yardım istiqamətində bir əhəmiyyətli səbəbi sizsiniz. Yəni, Nurlar təsəlliləriylə və imanın həqiqətləriylə sizi bu həbs müsibətinin çətinliklərindən və dünyəvi çox zərərlərindən və boşuna qəm və hüzn ilə gedən həyatınızı faydasızlıqdan, boşuna məhv olmasından və dünyanızın ağlaması kimi axirətinizi ağlamaqdan qurtarıb tam bir təsəlli sizə verməkdir. Madam həqiqət budur. Əlbəttə siz belə, Dənizli Məhbusları və Nur tələbələri kimi bir-birinizə qardaş olmanız lazımdır. Görürsünüz ki: Bir bıçaq içinə girməmək və bir-birinizə təcavüz etməmək üçün xaricdən gələn bütün əşya və yemək və çörəyinizi və şorbanızı qarışdırırlar. Sizə sədaqətlə xidmət edən gözətçilər çox zəhmət çəkirlər. Həm siz, birlikdə tənəffüsə çıxmırsınız. Guya canavar və vəhşi kimi bir-birinizə hücum edəcəksiniz. Məhz indi sizin kimi fitri qəhrəmanlıq damarını daşıyan yeni dostlar, bu zamanda mənəvi böyük bir qəhrəmanlıq ilə heyətə dəyin ki: "Nəinki əlimizə bıçaq, həmçinin tüfəng və tapança da verilsə, həm əmr də verilsə, biz bu biçarə və bizim kimi bəlaya uğrayan yoldaşlarımıza toxunmayacağıq. Əvvəllər yüz düşmənlik və ədavətimiz olsa da, onları halal edib xatirlərini qırmamağa çalışacağımıza, Quranın və imanın və İslami qardaşlığın və faydanın əmri ilə və irşadıyla qərar verdik." deyərək, bu həbsi bir mübarək dərshanəyə çevirin." [25]

Bədiüzzaman məhbuslara “Məhz ey bu Mədrəsə-i Yusifiyyədə mənim dərs yoldaşlarım!” -deyə xitab edərək onlara belə tövsiyələr vermişdir:

“Madam həqiqət budur. Və bu həqiqəti Risalə-i Nur o dərəcə qəti və günəş kimi isbat etmiş ki; iyirmi ildir ki, inadkarların inadlarını qırıb imana gətirir. Biz də həm dünyamıza, həm gələcəyimizə, həm axirətimizə, həm vətənimizə, həm

millətimizə tam mənfəətli və asan və salamatlı olan iman və istiqamət yolunu təqib edib, boş vaxtımızı sıxıntılı xəyallar yerinə Qurandan bildiyimiz surələri oxumaq və mənalarını bildirən yoldaşlardan öyrənmək və qəzaya qalmış fərz namazlarımızı qəza etmək və bir-birinin gözəl xasiyyətlərindən istifadə edib bu həbsxananı gözəl xasiyyətli fidanlar yetişdirən bir mübarək bağçaya çevirmək kimi saleh əməl ilə həbsxana müdir və əlaqədar şəxsləri, cani və qatillərin başlarında zəbani kimi əzab məmurları deyil, bəlkə Mədrəsə-i Yusifiyyədə cənnətə adam yetişdirmək və onların tərbiyəsinə nəzarət etmək vəzifəsiylə məmur bir doğru ustad və şəfqətli rəhbər olmalarına çalışmalıyıq. "[26]

Bədiüzzaman həbsdə olanların Quran əxlaqını almaq üçün öyrədilməli olduqlarını həbsxana müdirinə də yazı ilə bildirmiş və bunun üçün icazə istəmişdir. Çünki vicdanları heç narahat olmadan cinayət işləyə bilən bu insanları həbsdən sonra cinayət işləməkdən qoruyacaq tək güc Allah qorxusudur. Allahdan qorxan, Allahı sevən və Onun razılığını hədəfləyən bir insanın Allahın xoşlanmayacağı bir iş etməsi qeyri-mümkündür. Bu həqiqətin fərqində olan Bədiüzzaman hər düşdüyü həbsxananı bir mədrəsəyə çevirmiş və bu mədrəsələrdə yüzlərlə adamın iman etməsinə vəsilə olmuşdur. Tələbələri də bu mədrəsələrdə həm şagird, həm də müəllim kimi olmuşlar.

Maraqlıdır ki, həbsxanada olduğu halda belə dövlətə və millətə xeyir gətirmək üçün çalışan, ən çətin şərtlər altında belə rahatlığını və mənfəətlərini heçə sayaraq, dövlətə və millətə xidmət üçün gecəsini gündüzünə qatan bu mübarək, səmimi və dürüst insana həyatının bir çox dövründə böhtanlar atılmış, hətta dövlətə qarşı çıxan bir insan kimi tanıdılmışdır.

Unutmamaq lazımdır ki, bu, tarix boyunca bir çox ixlaslı müsəlmanın qarşılaşdığı bir vəziyyətdir. Ancaq Allah daim hər hadisəni möminlərin lehinə çevirmiş və inkarçıların möminlərə zərər vermək üçün uzatdıqları əllərini bağlamışdır. Onlardan möminlərə gələn hər cür pisliyin qarşılığını da həm dünyada, həm də axirətdə misliylə vermişdir. Zülmə və müxtəlif böhtanlara, çətinliklərə məruz qalan səmimi qullarını da qurtarmış, dünyada və axirətdə onları maddi və mənəvi gözəlliklərlə mükafatlandırmışdır.

Şübhəsiz mükafatın ən böyüyü, Allahın sonsuz mərhəməti ilə möminləri layiq qıldığı cənnətidir.

# HZ. YUSİF MƏDRƏSƏSİNDƏ ÖYRƏDƏN VƏ ÖYRƏNƏN İSLAM BÖYÜYÜ: BƏDİÜZZAMAN SƏİD NURSİ

Kitab boyunca ifadə edildiyi kimi tarix ərzində bir çox müsəlman Allah yolunda etdikləri faydalı işlərin, Allahın tək bir ilah olduğunu izah etmələrinin qarşılığında inkarçı cəmiyyətlər tərəfindən həbslə cəzalandırılmışdır. Amma onların həbsdə olmalarının səbəbi cinayət işləmələri, qanunlara qarşı çıxmaları deyil. Müsəlmanların gözəl əxlaqı insanlar arasında hakim etməsindən və bu səbəbdən öz pis əməllərinin ortaya çıxacağından, pisliklərdən əldə etdikləri gəlir və mənfəətlərinin yox olacağından qorxanlar müsəlmanlara həmişə böhtanlar atmış, xalqı və rəsmi orqanları onlara qarşı qaldırmışlar.

Oxşar hadisələr Bədiüzzamanın həyatı boyunca da tez-tez təkrarlanmışdır. Özü və tələbələri Quran əxlaqını izah etmək üçün səmimi qəlbdən səy göstərən, mövqe və var-dövlət ehtirası olmayan, siyasətdən xüsusilə uzaq duran, imansızlıq axınlarına qarşı insanları Quranın təqdim etdiyi sülh və hüzur mühitinə dəvət edən, dövlətin bütövlüyünə və milli mənəvi dəyərlərinə zərər verənlərə qarşı mübarizə aparan kəslər olmalarına baxmayaraq həmişə əsassız və çirkin böhtanlarla ittiham edilmişlər. Bunun nəticəsində isə haqlarında istintaqlar açılmış və illərcə həbsdə tutulmuşlar. Hər dəfə isə günahsızlıqları aydın olmuş və heç bir cinayət işləmədikləri görülmüşdür. Ancaq bu əsnada saxlandıqları həbsxanalar onlar üçün hz. Yusif Mədrəsəsi olmuş, mənəvi dərəcələri, səmimiyyətləri, qətiyyətləri, bir-birlərinə olan bağlılıqları, ixlasları artmış və güclənmişdir.

Bədiüzzamanın məruz qaldığı tətbiqlər, ona atılan böhtanlar Quran ayələrinin bir təcəllisidir. Həyatı qısaca nəzərdən keçirildiyində belə Quranda qeyd olunan və saleh möminlərin qarşılaşdıqları hadisələrin çox bənzərlərini yaşadığı və bu hadisələrə qarşı Quranda xəbərləri verilən gözəl əxlaqlı möminlər kimi davrandığı açıqca görülə bilər. Bu səbəblə, Bədiüzzamanın həyatına qısaca baxmaq, bu günə nümunə olması baxımından da faydalı olacaq.

# Bədiüzzaman Səid Nursinin həyatı:

Səid Nursi yaxın keçmişimizdə yaşamış ən böyük İslam alimlərindən və fikir adamlarından biridir. 1873-cü ildə Bitlisin Hizan mahalına bağlı Nurs kəndində dünyaya gəlmiş, 1960-cı ildə Şanlıurfada vəfat etmişdir.

Gənc yaşda əldə etdiyi dini və dünyəvi elmlərdəki dərin məlumatı dövrün elm dairələri tərəfindən qəbul edilmiş, kiçik yaşdan etibarən diqqəti çəkən iti zəkası, güclü yaddaşı və üstün qabiliyyətləri səbəbiylə "dövrünün bənzərsiz gözəlliyi" mənasını verən "Bədiüzzaman" ləqəbiylə xatırlanmağa başlanmışdır.

Quran əxlaqı üçün heç bir xidmətdən qaçmamış, buna görə masonların və din düşmənlərinin bir çox ittihamı ilə qarşılaşmış, davamlı təzyiq görmüşdür.

Şərqi Anadolunun ən vacib ehtiyacı olaraq gördüyü təhsil problemini həll etmək üçün din və təhsil elmlərinin birlikdə tədris oluna biləcəyi və Mədrəsət-üz Zəhra adını verdiyi bir universitet qurulmasını təmin etmək üçün 1907-ci ildə İstanbula gəlmişdir. Dərin biliyi buradakı elm dairələrinə də özünü çox qısa müddətdə qəbul etdirmiş, müxtəlif qəzet və jurnallarda məqalələr dərc etdirmiş, azadlıq və məşrutə müzakirələrinə qatılmışdır. 1909-cu ildə 31 Mart hadisələrində sakitləşdirici bir rol oynamış, lakin haqsız ittihamlarla hərbi vəziyyət məhkəməsinə çıxarılmış və nəticəsində bəraət etmişdir.

Bu hadisədən sonra təkrar Şərqi Anadoluya qayıtmış, I Dünya Müharibəsində tələbələriylə milis qüvvə meydana gətirmişdir. Bədiüzzaman böyük fəallıq göstərdiyi I Dünya Müharibəsində Rusiyada əsir düşmüşdür. Üç il davam edən əsarət həyatının sonunda Sibirdəki əsir düşərgəsindən qaçaraq Leninqrad, Varşava, Vyana və Sofiya yolu ilə İstanbula gəlmişdir.

İstanbulda dövlət böyükləri və elm dairələri tərəfindən böyük bir maraqla qarşılanmışdır. Dar-ül Hikmət-i İslamiyyə üzvlüyünə təyin edilən Bədiüzzaman, buradan aldığı maaşla öz kitablarını dərc etdirərək pulsuz paylamışdır. İstanbulun işğalı əsnasında işğalçıların əsl niyyətlərini ortaya qoyan Hutuvat-i-Sittə adında xəbərdar edici bir broşura hazırlamışdır. Dövrün Şeyx-ül İslamına təzyiq edərək alınan "Anadoludakı hərəkətin üsyan olduğuna" dair fətvanı rədd etmiş, milli mübarizəni müdafiə etmiş və dəstək olmuşdur. Bu hərəkətləri Anadoluda qurulan Millət Məclisinin rəğbətini qazanmış və Ankaraya dəvət edilmişdir.

1922-ci ildə Ankaraya gəldiyində dövlət mərasimiylə qarşılanmışdır. Burada ona edilən Şərq Ümumi Vaizliyi, millət vəkilliyi və Diyanət İşləri Nazirliyi təkliflərini rədd etmişdir. Bəzi millət vəkillərinin İslama qarşı mənfi fikirlər daşıdıqlarını görüncə 10 maddəlik bir bəyannaməni məclis kürsüsündən təqdim etmişdir.

Şeyx Səid üsyanı çıxdığında, hadisəylə heç bir əlaqəsi olmadığı halda, Vanda inzivaya çəkildiyi mağaradan alınaraq Burdura, oradan da Ispartanın Barla mahalına aparılmışdır. 600.000-ə yaxın dərc olunmuş kitablarını burada yazmağa başlamışdır. Ömrünün sonuna qədər gördüyü işlərdən narahat olan kütlələr tərəfindən əziyyət görmüş, 1935-ci ildə Əskişəhər, 1943-cü ildə Dənizli, 1947-ci ildə Afyon və 1952-ci ildə İstanbul məhkəmələrinə çıxarılmış, Kastamonu və Emirdağda nəzarət altında tutulmuşdur. Həyatının təxminən 30 ilini həbsdə və ya sürgündə keçirmiş, Risalə-i Nur Külliyatını bu çətin şərtlərdə tamamlamağa çalışmışdır. Əsrinin ən gözəl Quran təfsiri olan Risalə-i Nur Külliyatını 1952-ci ildə tamamlamışdır. Risalə-i Nurlar 8 il davam edən Afyon Məhkəmələri nəticəsində Diyanət İşləri Məşvərət heyəti tərəfindən tək-tək araşdırılaraq imanı və İslami əsərlər olduğu və dərc olunmasında hər hansı bir təhlükənin olmadığına qərar verilərək bəraət etmişdir. Bəraətindən sonra Risalə-i Nur Külliyatı Adnan Menderesin təlimatıyla hərəkətə keçən Demokrat Partiya Isparta Millət vəkili Tahsin Tola tərəfindən yeni hərflərlə çap edilmişdir. Quran yolunda mübarizəylə keçən 87 illik həyatı 1960-cı ildə Şanlıurfada sona çatmışdır.

Bədiüzzamanın həyatının böyük bir hissəsinin həbsxanalarda, sürgündə, nəzarətdə keçməsi onun və tələbələrinin inanclarında nə qədər qərarlı və səbirli olduqlarını göstərmişdir. Dövlətin və millətin maraqları üçün xidmət etməyə özlərini həsr etmiş olmalarına baxmayaraq, bəzi kütlələr tərəfindən həmişə dövlətə zərər verməyə çalışmaqla günahlandırılıblar. Bu kütlələr böhtanları ilə, daim dövlətin və millətin faydasını düşünən bu insanları, xalqın gözündə zərərli insanlar olaraq göstərməyi və onları alçaltmağı məqsəd qoymuşlar. Məsələn, bu kütlələr sahib olduqları nəşriyyat orqanları və oxşar üsullarla Səid Nursi və tələbələrini gizli və dinə əsaslanan cəmiyyət qurmaq, rejimə qarşı çıxmaq və Respublikanın təməl ölçülərini yıxmağa çalışmaqla günahlandırmışlar. Bunun nəticəsində həbs edilərək Əskişəhər Ağır Cəza Məhkəməsinə çıxarılmaq üzrə Səid Nursi ilə birlikdə 120 Nur tələbəsi, o dövrün bəzi yazarlarının izah etdiyinə görə, “sanki qiyam çıxarmışlar kimi kamyonlarla əlləri qandallı olaraq” Əskişəhərə aparılmışlar.

Bu arada qeyd etməkdə fayda var ki, bütün bu hadisələr əsnasında Türk polisi və Türk əsgəri daim vicdanlı davranmış, Bədiüzzamana və Nur tələbələrinə qarşı səmimi və anlayışlı bir rəftar göstərmişlər. Bəzi dinsiz kütlələrin təhrikləri və yaratdıqları hiddətlənmə səbəbiylə onlar vəzifələrini yerinə yetirmək məcburiyyətində qalmışlar, amma haqqın yanında olduqlarını ifadə etməkdən də çəkinməmişlər. Məsələn, Bədiüzzaman və 120 tələbəsini Əskişəhərə aparmaq vəzifəsi tapşırılan hərbi dəstənin komandiri qandallarını açaraq ibadətlərini rahatca yerinə yetirmələri üçün onlara imkan yaratmışdır.

Bir başqa əhəmiyyətli İslam mütəfəkkiri olan Necib Fazıl Kısakürek “Son Dövrün Din Məzlumları” adlı kitabında Bədiüzzamanın və Nur tələbələrinin nəzarətə alınmaları ilə əlaqədar olaraq bunları ifadə etmişdir:

“Basqında Bədiüzzaman və tələbələrinə aid hər şey ələ keçdiyi halda, ortada ittihama səbəb ola biləcək heç bir şey yoxdur. Bu vəziyyətdə onu bəraət etdirməyərək edamlıq bir ittihamın təsəlli mükafatı kimi 15 tələbəsi ilə birlikdə həbsə məhkum edirlər ... 105 tələbə də bəraət qərarı alır”.[27]

Əskişəhər Məhkəməsi Bədiüzzamana, Quran-ı Kərimdən bəzi ayələri təfsir etdiyi üçün 11 ay həbs cəzası vermişdir. Əskişəhər həbsi zamanı Bədiüzzaman olduqca çətin günlər yaşamışdır. Onu ayrı bir hücrədə təcrid etmişlər və cür çətinliklər yaşatmışlar. Bu həbs əsnasında Bədiüzzamana tətbiq olunan rəftara bəzi nümunələr müxtəlif qaynaqlarda belə qeyd edilmişdir:

“120 tələbəsi ilə Əskişəhər həbsxanasında olan Səid Nursi tam bir təcrid içərisinə alınaraq, ona və tələbələrinə müxtəlif zülm və işgəncələr verilir. Tələbələrindən Zübeyir Gündüzalpın dediyinə görə 12 gün yemək verilmir”.[28]

“Onsuz da bizə edam məhkumu gözüylə baxırdılar. Heç bir ziyarətçi buraxmırdılar. “Siz də edam olunacaqsınız, bunlarla danışsanız” -deyirdilər. Gecələr çirkdən, taxtabitidən, hamam böcəklərindən yatmaq mümkün deyildi”.[29]

Əskişəhər həbsxanasından azad olan Bədiüzzaman Kastamonuda polis bölməsi qarşısında bir evdə ev dustağı cəzası verilmişdir. 8 il sonra gələn Dənizli Məhkəməsi 20 ay həbs cəzası vermiş, daha sonra Bədiüzzaman Emirdağa sürgün edilmişdir.

Bütün bu hadisələr əsnasında saysız işgəncə və əziyyətlərə məruz qalmış, dəfələrlə zəhərlənmişdir. Son dərəcə yaşlı və xəstə olan Bədiüzzaman, xüsusilə soyuq, rütubətli və havasız hücrələrdə tutulmuşdur. Həbsxana günlərindəki xatirələrini Səid Nursi belə izah edir:

“Çox sadə bəhanələrlə qışın ən şiddətli soyuq günlərində məni həbs edərək böyük və çox soyuq iki gün sobasız bir kamerada təcrid içində həbs etdilər. Halbuki mən kiçik otağımda gündə bir neçə dəfə soba yandırarkən və daim manqalımda atəş tutarkən, zəiflik və xəstəliyimdən çətinliklə dayana bilirdim”.[30]

Bədiüzzaman sözlərinin davamında, əvvəlki hissələrdə də bəhs etdiyimiz kimi, çəkdiyi bu çətinlikləri yüngülləşdirən təsəllinin məhkumların İslama girmələri olduğunu söyləyir.

# Bədiüzzamana qarşı edilən ittihamlar

Dini və mənəvi dəyərlərin yayılmasından məmnun olmayan kütlələr Səid Nursi üçün də həmişəki taktikalarını tətbiq etmişlər və Bədiüzzamanın xeyirli işlərini əngəlləmək üçün bütün xalqı və rəsmi orqanları ona və Nur tələbələrinə qarşı qızışdıracaq şəkildə bir qaralama kampaniyasına başlamışlar. Dövrün müxalif qəzetləri Bədiüzzaman və tələbələri əleyhinə təbliğat və uydurma yazılar nəşr etmişlər. Bəzi şəxslər, xəyali böhtan ssenariləri üçün pulla tutulmuşlar. Ancaq hər dəfə məhkəmələr Bədiüzzamanı və yoldaşlarını bütün bu günahlandırmalardan bəraət etdirmiş, uşaqların belə anlayacağı sadə və təcrübəsiz şəkildə atılan böhtanlara inananlar özlərini ictimaiyyət nəzdində alçaltmışlar.

Bu dairələrin təşkil etdikləri böhtan və hücumlar araşdırıldıqda demək olar ki, hamısının tarixdə möminlərin qarşılaşdıqları böhtanların bir oxşarı olduqları görülür. Ən başda "dini istismar edir" böhtanı olmaqla, "ətrafındakıları aldadır", "azğındır", "dəlidir", "ona uyanlar cahil kəslərdir" ittihamları ... Bunlar Quranda dəfələrlə diqqət çəkilən, möminlərə yönəldilən böhtan və ittihamlardan bəziləridir.

Hər mömin Qurandakı, **"Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: "Biz sizinlə göndərilənləri inkar edirik!" - dedilər". (Səba surəsi, 34)** ayəsində də ifadə edildiyi kimi qövmün liderlərinin əks reaksiyasıyla qarşılaşmışdır və qarşılaşmağa davam edəcək. Bu, Allahın dəyişməyən bir qanunudur və bu davranışlara məruz qalmaq möminlərin doğru yolda olduqlarının açıq dəlilidir.

Quranın yüzlərlə ayəsində izah edilən bu ittiham və təzyiqlərin Bədiüzzaman Səid Nursi və tələbələrinin həyatlarında da təcəlli etməsi, izlədikləri yolun doğru və apardıqları mübarizənin təsirli olduğunun açıq bir göstəricisidir. Bu hadisələrlə, Quran əxlaqı yolunda mübarizə aparan bütün möminlər qarşılaşacaqlar. Allah bu həqiqəti bir ayəsində belə bildirmişdir:

**Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? ... (Bəqərə surəsi, 214)**

Müxtəlif çətinliklər, zülmlər və ittihamlarla keçmişdə yaşamış saleh möminlərin və peyğəmbərlərin də qarşılaşması şübhəsiz bütün müsəlmanların ibrətlə üzərində düşünməli olduğu bir mövzudur. Məhz bu səbəblə, Bədiüzzaman

Səid Nursiyə edilən saysız qaralama və hücumdan və hiylələrdən, Quran ayələri ilə birlikdə bəzi nümunələr vermək bütün müsəlmanlar üçün faydalı olacaq.

## Bədiüzzaman Səid Nursiyə atılan böhtanlar: Dini şəxsi maraqlara alət etdiyi iftirası

Bədiüzzamana yönəldilən ən böyük ittihamlardan biri, həyata keçirdiyi fəaliyyətlərdən, maddi və mənəvi mənfəət əldə etmək, üstünlük və ya pul arxasınca qaçmaq istədiyinə istiqamətli böhtandır. Dünyadan heç bir gözləntisi olmayan, heç bir malı mülkü olmayan, öz deyimiylə "özünü bəyənməməyi özünə peşə götürən" və son dərəcə təvazökar bir həyat yaşayan Bədiüzzamana tələbələrindən pul sızdırmaq, liderlik ehtirasını təmin etmək kimi bəsit böhtanlar atılmışdır. Ayələrdə möminlərin bu cür böhtanlara məruz qaldıqlarını görərik:

**Qövmünün kafir zadəganları dedilər: "O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir" ... (Muminun surəsi, 24)**

**Onlar dedilər: "Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik". (Yunis surəsi, 78)**

Əlbəttə Səid Nursi bütün müsəlmanlara nümunə olan həyatı və geridə buraxdığı əsərləri ilə bu böhtanın tamamilə əsassız və uydurma olduğunu sübut etmişdir.

# Bədiüzzamana uyanların alçaldılması

Bədiüzzaman kimi böyük bir İslam alimini dinləyən, ondan istifadə etməyə çalışan tələbələri haqqında da onların əleyhinə təbliğat aparılmışdır. Bədiüzzamanın tələbələrini sadəlövhlüklə, ağılsızlıqla, kor-koranə bağlı olmaqla günahlandıranlar, keçmişdə yaşayan inkarçılarla eyni düşüncəni daşıdıqlarını göstərmişlər. Quranda keçmişdə yaşamış inkarçıların da özlərini doğru yola dəvət edənlərə belə söylədikləri bildirilir:

**Onun qövmünün kafir zadəganları dedilər: "Biz səni özümüz kimi sadəcə bir insan hesab edir və içimizdən ancaq düşüncəsiz olan ən rəzil adamların sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik". (Hud surəsi, 27)**

Və Allah bu dünya həyatının cazibədar bəzəklərinə aldanaraq dindən uzaqlaşan və möminləri "zəif ağıllı" olaraq xarakterizə edənlərə Quranda belə bir cavab verir:

**Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" - deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" - deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

# Dəlilik iftirası

Tarixdə möminlərə edilmiş olan hücumların ən əhəmiyyətlilərindən biri "dəlilik" iftirasıdır. İslam əxlaqının yayılması üçün mübarizə aparan Bədiüzzaman Səid Nursi də eyni ittihamlarla bir çox dəfə qarşılaşmışdır. Quranda möminlərə yönəldilən dəlilik iftirası bəzi ayələrdə belə bildirilir:

**Firon dedi: "Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!" (Şuəra surəsi, 27)**

**Onlardan əvvəl Nuh qövmü elçiləri yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" - dedilər və ona hədə-qorxu gəldilər. (Qamər surəsi, 9)**

Bədiüzzamanın həyatında bu mövzuda yaşanmış çox dəqiq bir nümunə vardır: 1908-ci ildə dini mövzularda müzakirələrə qoşulduğu üçün Ulduz Hərbi Məhkəməsinə göndərilmiş və burada iki yəhudi, bir romalı, bir erməni və bir türk həkimdən ibarət heyət ona "əqli çatışmazlıq" diaqnozu vermişdir. Daha sonra köçürüldüyü ağıl xəstəxanasındakı həkim isə Bədiüzzamanın onunla danışığından sonra "Bu adamda dəlilik varsa, dünyada ağıllı yoxdur" -demişdir. [31]

Bədiüzzaman bundan sonra da bəhsi keçən kütlələrin təsiri altında olan nəşrlərdə tez-tez dəlilik ittihamı ilə qarşılaşmışdır.

Ancaq Bədiüzzamanın böyük bir mütəfəkkir olduğunu, zəkasını, ağlını, fərasətini, bəsirətini, səmimiyyətini ona dost və düşmən olan hər kəs bilir. Arxasında buraxmış olduğu iman həqiqətlərini və Quranın həqiqətlərini səmimi və ağıllı bir üslubla qələmə aldığı böyük əsəri də onun əsl xarakterinin göstəricisidir.

# Ətrafındakıları aldadıb, azdırdığı iddiası

Din əxlaqından uzaq insanlar hər zaman insanları doğru yola çağıran, bu mövzuda öndə gedən kəsləri digər inananları aldatmaqla, yalan söyləyərək doğru yoldan ayırmaqla günahlandırmışlar. Əsl doğru yoldan ayrılanlar özləri olduqları halda, Allahın nazil etdiyi kitablara uyanları bu şəkildə ittiham etmələri, onların əslində dinin özünə qarşı mübarizə başlatdıqlarının da bir göstəricisidir. Quranda inkarçıların bu böhtanları belə bildirilir:

**Onlar dedilər: "Bu ikisi, doğrudan da, sehrbazdır. Onlar öz sehrləri ilə sizi torpağınızdan qovub çıxartmaq və sizin ən gözəl yolunuzu aradan götürmək istəyirlər. (Taha surəsi, 63)**

# Azğınlıq iftirası

Bədiüzzamana qarşı edilən ittihamlardan biri də onun İslamdan kənar azğın bir inancı müdafiə etdiyi şəklindədir. Bədiüzzamanın Quran və Sünnəyə uymadığı, özünə görə bir din uydurduğu şəklindəki təxribatların məqsədi xalqı və mövzunun təfərrüatını bilməyən bəzi dindar kütlələri onun əleyhinə qaldırmaqdır. Bu ittihamın eynisinin keçmişdə yaşamış olan möminlərə də yönəldildiyi Quran ayələrində belə xəbər verilir:

**Xalqının zadəganları dedilər: "Həqiqətən də, biz səni açıq-aydın azğınlıq içində görürük!" (Əraf surəsi, 60)**

Bunun üçün Bədiüzzamanın bəzi rəftarları qəsdən səhv şərh olunaraq əleyhinə təbliğat üçün istifadə edilmişdir. Bədiüzzaman bir məktubunda "Gizli bir komitənin təhriki ilə bəzi saf hocaların" öz əleyhinə danışdıqlarını və "Səid cümə camaatına gəlmir, saqqal saxlamır" şəklində özünü günahlandırdıqlarını bildirmişdir.32 Buna baxmayaraq Bədiüzzaman bu təxribat tərzindəki iddialara qarşı hər zaman lazımlı izahlar vermişdir və ittihamların əsassızlığı aydın olmuşdur.

# Bədiüzzamana qurulan hiylələr haqqında sui-qəsd və böhtanlar hazırlanması

**Nuh dedi: "Ey Rəbbim! Onlar mənə asi oldular və var-dövləti, övladı özünə zərərdən başqa bir şey artırmayan bir adama tabe oldular. Onlar mənə qarşı böyük bir hiylə işlətdilər" (Nuh surəsi, 21-22)**

Nuh Peyğəmbərin də ifadə etdiyi kimi, tarix boyunca, inkarçılar möminləri dayandırmaq üçün müxtəlif yollara əl atmışlar. Sui-qəsd təşkil etmək və böhtan atmaq bunun ən diqqətə çarpan nümunələrindəndir. Bədiüzzaman da bu üsulla tez-tez qarşılaşmışdır.

Bu sui-qəsdlərin nümunələrindən biri "Bilinməyən tərəfləriylə Bədiüzzaman Səid Nursi" adlı əsərdə izah edilir. Buna görə sui-qəsdə qatılanlardan biri bir içki dükanında "Səidin xidmətçisi Səidə rakı aldı" -deyə yazar. Daha sonra içki dükanındakı sərxoşlara kağızı imzalatmağa çalışar.[33] Bu sui-qəsddə məqsəd, Bədiüzzamanı əsassız böhtanlarla günahlandıraraq, müsəlman xalqın qarşısında gözdən salmaq, dini istiqamətdən səmimiyyətsiz olduğu imicini yaratmaqdır.

Bu əsassız böhtanların bir başqa nümunəsini Bədiüzzaman bir məktubunda izah edir. Öz deyimiylə "rəsmi məqamı işğal edən bir adam şeytanın belə ağlına gəlməyəcək bir böhtan atmış" və gecələri Bədiüzzamanın səhərə qədər şənlik etdiyini və yenə Bədiüzzamanın ifadəsiylə "Tavalarla paxlavalar yeyildiyini, fahişə və namussuzların Bədiüzzamanın evinə girib-çıxdığını" söyləmişdir. Buna qarşı Bədiüzzaman belə cavab vermişdir:

"Halbuki mənim qapım gecə çöldən və içəridən kilidli idi və səhərə qədər bir gözətçi o bədbəxtin (böhtan atan adamın) əmri ilə qapımı gözətləyirdi".[34]

Göründüyü kimi bu kəslər, xalqı Bədiüzzamandan soyutmaq üçün fahişəliklə, içkiylə günahlandıracaq qədər hiyləgər tələlər hazırlamışlar. Lakin unutmamaq lazımdır ki, Allah Quranda bu tərz tələlərin inananlara bir zərər verə bilməyəcəyini və hər şeyin nəticəsinin möminlərin xeyirinə olacağını belə müjdələmişdir:

**Onlardan əvvəlkilər də hiylə qurdular. Halbuki bütün hiylələr Allaha aiddir. O, hər kəsin nə qazandığını bilir. Kafirlər Axirət yurdunun kimin olacağını biləcəklər. (Rad surəsi, 42)**

Bədiüzzaman da özünə yönəldilən bütün bu ittihamlardan təmizlənmiş, bu əsassız böhtanları atanlar isə öz-özlərini gözdən salmışlar.

# Yurdundan sürgün edilməsi

**Onun qövmünün təkəbbürlü zadəganları dedilər: "Ey Şueyb! Ya biz hökmən səni də, səninlə birlikdə iman gətirənləri də yurdumuzdan çıxaracaq, ya da siz bizim dinimizə dönəcəksiniz". Şueyb dedi: "Hətta nifrət etmiş olsaq belə?" (Əraf surəsi, 88)**

**Onlar dedilər: “Ey Lut! Əgər təbliğatına son qoymasan, mütləq qovulanlardan olacaqsan!” (Şuəra surəsi, 167)**

Allah yuxarıdakı ayələrdə olduğu kimi bir çox ayəsində möminlərin yaşadıqları yerlərdən sürgün edildiklərini bildirmişdir. Bədiüzzamanın həyatında ən çox qarşılaşdığı cəzalardan biri də sürgündür. Bu mübarək insanın apardığı mübarizəni fikirlə susdura bilməyən masonlar və digər bunun kimi müxtəlif kütlələr, çarəni onu uzaq yerlərə sürgün etməkdə tapmışlar. Bədiüzzaman ardıcıl olaraq Barlaya, Kastamonuya, Emirdağa və İspartaya sürgün edilmişdir.

Qəsəbələrdə, kəndlərdə, ən ucqar yerlərdə min bir çətinlik içində zorla saxlanılmış, kimləsə görüşməməsi üçün, bəzən olduğu kəndə kənardan giriş qadağan edilmişdir. Ölümündən iki gün əvvəl çox xəstə ikən gəldiyi Urfadan belə sürgün edilmək istənmişdir. Şagirdlərinin və bəzi vicdan sahibi kəslərin israrları nəticəsində son anda sürgün edilməkdən xilas olmuş və bu hadisədən sonra vəfat etmişdir.

# Münafiqlərin müsəllət olması

Bədiüzzamanı və tələbələrini dayandırmaq üçün istifadə edilən üsullardan biri də, bu saf insanların arasına ikiüzlü kəslərin soxulmasıdır. Bu kəslərin vəzifəsi Bədiüzzaman və tələbələriylə əlaqədar fəaliyyətləri din düşmənlərinə bildirmək və daha sonra bu kütlələrin təsiri altındakı mətbuatda bu insanlar haqqında əleyhinə yazılar çıxmasını təmin etməkdir.

Bunun nümunələrindən biri 1964-ci ildə “Cumhuriyet”də nəşr olunan “İnanc istismarçıları” adlı yazılardır. Özünü dindar olaraq göstərib, Nur tələbələri arasına sızan, dəfələrlə Bədiüzzamanın yanında olan Yılmaz Çetiner adlı şəxs, daha sonra bu mömin birliyi haqqında ağlasığmaz böhtanlar ortaya atmışdır. Bədiüzzaman bir sözündə aralarına girən bir casusu bu şəkildə izah edir:

“Həm bir hiyləgər casus adam Risalə-i Nur tələbələri əleyhinə çalışırdı ki, onları həbsə atdırsın. Bir gün sərbəst olaraq- “Mən bir ipucu tapa bilmədim ki, bunları həbsə atam. Əgər bir ipucu tapsam, onları həbsə atacağam” -deyə elan etdiyi vaxtdan iki gün sonra bir iş görüb, Risalə-i Nur tələbələri yerində ikən, o adam iki il həbsə girdi”. [35]

Bədiüzzaman, özünə qarşı təşkil edilən bütün bu sui-qəsd, hücum və iftiralara baxmayaraq apardığı mübarizədən heç bir güzəştə getməmişdir. Ona

edilənlər onun və tələbələrinin şövqünü və qətiyyətini artırmaqdan başqa bir şeyə yaramamışdır. Quranda vəd edildiyi kimi inkar edənlərin hiylələri boşa çıxmışdır. Allah inkarçıların hiylələrinin boşa çıxacağını ayələrində belə bildirir:

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur. (Tövbə surəsi, 32-33)**

**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara kömək göstəriləcəkdir. (Saffat surəsi, 171-172)**

Bədiüzzaman tarix boyunca Allah yolunda zülm görmüş səmimi möminlərdən biridir. Ancaq bilinməlidir ki, bir möminin həyatı boyunca qarşılaşdığı hər çətinlik, hər əziyyət, eşitməkdən xoşlanmayıb amma eşitdiyi hər söz və hər böhtan o möminin xeyrinədir. Mömin bütün bunlara səbir göstərib, təvəkkül etdikcə onun cənnətdəki məkanı daha da genişlənər, daha da gözəlləşər, məqamı daha da artar. Dünyada isə Allah möminlərə üstünlük vəd etmişdir. Bu səbəblə inkarçılar nə qədər çalışsalar da etdikləri boşa gedər. Hətta onlara cəhənnəm əzabı olaraq geri qayıdar.

Bədiüzzamanın yanında İmam-ı Azam, İmam-ı Ahmed, İbn-i Hanbel kimi İslam böyükləri də başda hz. Yusif Mədrəsəsi olmaqla bir çox çətinlik, işgəncə və zülmə məruz qalmışlar, "həbs edilərək", "sürgün edilərək", "təzyiq altına alınaraq" əngəllənməyə çalışılmışlar. Bədiüzzaman, hz. Yusif Mədrəsəsində olan və müxtəlif çətinliklərə sinə gərən İslam alimləri üçün belə demişdir:

"Həm ürəyimə gəldi ki, madam İmam-ı Azam kimi ən böyük müctəhidlər həbs çəkmiş və İmam-ı Ahmed ibn Hanbel kimi bir böyük mücahidə, Quranın bir tək məsələsi üçün həbsdə bir çox əzab verilmiş. Və şikayət etməyərək tam bir səbir ilə qərarlı olub o məsələlərdə sükut etməmiş. Və bir çox imamlar və alimlər, sizlərdən çox-çox əzab verildiyi halda, tam bir səbir içində şükür edib sarsılmamışlar. Əlbəttə sizlər, Quranın bir çox həqiqətləri üçün çox böyük savab və qazanc aldığınız halda bir az zəhmət çəkdiyinizdə minlərlə təşəkkür etmək borcunuzdur".[36]

# NƏTİCƏ

Bu kitabda bütün həyatları boyunca Allahın razılığını, rəhmətini və cənnətini ümid edərək yaşayan, bu yolda bir çox çətinliklə və əziyyətlə qarşılaşan möminlərin üstün əxlaqlarından bəhs edildi. Həqiqətən də Quranda xəbərləri verilən peyğəmbərlərin və keçmişdə yaşamış olan saleh möminlərin həyatlarına baxdığımızda həmişə çətin bir mübarizə, davamlı bir ölüm və ya yurdlarından və evlərindən sürgün edilmə təhdidi, böhtanlar, ittihamlar və istehza ilə qarşılaşırıq. Çünki onlar Allahın əmrinə tabe olmuş və yalnız din əxlaqını özləri yaşayaraq kifayətlənməmiş, imkanlarının çata bildiyi ən son nöqtəyə qədər insanlara dini və gözəl əxlaqı izah etmişlər. Bu səmimi və ciddi səyləri nəticəsində isə bir çox insanın imanına vəsilə olduqları kimi, daha çoxlarının da düşmənçiliyini qazanmış və bəzən çətinliklərlə dolu bir həyat yaşamışlar.

Bu çətinliklərə sinə gərə bilməyənlər, peyğəmbərlərin göstərdiyi gözəl əxlaqı, səbri və hamiyət-i İslamiyəni göstərə bilməyənlər isə "geridə qalanlar"dan olmuşlar, dünya həyatını seçərək axirətlərini dünya üçün satmışlar.

Ancaq unudulmamalı olan çox əhəmiyyətli bir həqiqət vardır: Allah bütün çətinlikləri yaxşıların və pislərin, təmizlərin və murdarların, səmimilərin və saxtakarların, iman edənlərin və dinsizlərin bir-birlərindən ayırd edilmələri üçün yaradar. Çətinliklər qarşısında Allahın məmnun olacağı gözəl əxlaqı göstərənlər Allahın dostudurlar və Allah dünyada və axirətdə dostlarına köməyini və dəstəyini müjdələyər. Allahın bir ayəsində bildirdiyi kimi "hər çətinliklə birlikdə asanlıq vardır".

Quranda bildirilən bu müjdə ilə yanaşı Allah möminlərə qurulan hiylələri mütləq pozacağını, o hiylələrin sahiblərini böyük bir məğlubiyyətə uğradacağını, inkar edənlərin möminlərə heç bir şəkildə zərər verə bilməyəcəklərini bildirir. Bununla əlaqədar ayələrdən bəziləri belədir:

**... Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Möminlərin yaşadıqları çətinliklərin ardından daim gözəllik, xeyir və bərəkət gəlmişdir. Məsələn, hz. Yusif həbsdən çıxanda Misirin xəzinələrinə rəhbər olaraq

təyin edilmişdir, Allah hz. Nuhu və inananları zülm edən qövmlərini həlak etdikdən sonra bərəkətli bir yerdə yerləşdirmişdir, hz. Musaya və qövmünə işgəncə verərək onları yox etmək üçün çalışan Fironun özü dənizdə boğularaq məhv olmuşdur. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) isə özünə qurulan hiylələrdən və ölüm hədələrindən sonra iman gətirənlərlə birlikdə hicrət etmək məcburiyyətində qalmışdır. Ancaq sonra Allah ona və möminlərin üzərinə rəhmətini və bərəkətini yaymış, möminlər böyük bir güc qazanaraq pislərin ittifaqını məğlubiyyətə uğratmışlar.

Allah dünyada hər kəsə etdiyinin qarşılığını göstərəcək, saleh möminləri də mütləq üstün edəcək. Ancaq əsl cavab sonsuz və əsl həyatımız olan axirətdədir. Hər insan, tez ya da gec mütləq bir gün öləcək. Hər kəs heç gözləmədiyi bir anda ölüm mələyi ilə qarşılaşacaq və məhz o an hər insan həqiqəti bütün aydınlığı ilə görəcək. Hər kəs bundan əmin olmalıdır ki, dünya həyatını seçənlər, çətinliklərdən qaçanlar, keflərinin arxasından gedənlər, rahatlıqlarını pozmaqdan çəkinənlər, istək və arzularını Allahın razılığından üstün tutanlar, gələcək qayğısı ilə haqsız yerə həbsə atılmaqdan və ya sürgün edilməkdən qorxaraq dinlərini, ibadətlərini tərk edənlər ölüm mələklərini gördüklərində heç də dünya həyatında yaşadıqlarına sevinə bilməyəcəklər. Bu insanlardan heç biri, “Yaxşı ki, dünya həyatımda yan gəlib yatmışam, dünya zövqlərinin arxasıca qaçmışam. Bunlar da yanıma kar qaldı” deyə bilməyəcək. Deyə bilmədiyi kimi, bütün bu etdikləri onda təsvir olunmayan və geri qaytarılması imkansız bir peşmançılığa səbəb olacaq, heç bir zaman hiss etmədiyi qədər böyük bir ürək ağrısı və çarəsizlik hissi duyacaq. Allah inkarçıların axirətdəki peşmançılıqlarını belə bildirir:

**Odun üzərində dayandırıldıqları vaxt onların: “Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq” – dediklərini görəydin! (Ənam surəsi, 27)**

**Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: “Kaş kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni əzabdan qurtarmadı. Hökmranlığım da məhv olub getdi”. (Haqqə surəsi, 25-29)**

Bütün həyatını Allah üçün yaşayan, Allahın razılığından imtina etmədiyi üçün həyatının böyük bir hissəsində zülm görən, çətinlik yaşayan, həmişə öldürülmə təhlükəsi altında qalan, insanlardan incidici və istehzalı sözlər eşidən, böhtanlara məruz qalan, hətta həbsdə yatan bir mömin isə ölüm mələyini gördüyündə bütün həyatı boyunca yaşadığı çətinliklər üçün böyük bir sevincə qapılacaq. Hətta kitab

boyunca izah etdiyimiz kimi mömin çətinliklərlə qarşılaşdığı anda da çox böyük bir sevinc və ümid yaşayar; çünki bütün dünyadakı çətinliklərin sonunun xeyir olduğunu, Allahın mütləq bir asanlıq və üstünlük verəcəyini bilər. Üstəlik burada yaşadığı çətinliklərin axirətdə də bir gözəllik və qat-qat artırılmış nemətlər olaraq qarşısına çıxmasını şiddətlə ümid edər. Bu səbəblə inkar edənlər, çətinlik anında möminlərin rəftarına təəccüblənər, onların sevincinə və gücünə, ümidvar rəftarlarına heyrət edərlər. Çünki onlar möminlərin Allahdan, onların ummadığı şeyləri umduqlarını bilməzlər.

Hz. Yusif Mədrəsəsi bu səbəblə bir mömin üçün həm mənəvi bir təhsil yeri, həm də axirətdəki gözəlliklərin qapısını açan bir imtahan vəsiləsidir. Hz. Yusif Mədrəsəsinə girən mömin, bu imtahanın xeyirlə nəticələnməsini gözlədiyi və cənnəti bir az daha çox uma bildiyi üçün böyük bir sevinc duyar.

Bu kitabda da bəhs edildiyi kimi möminlər hadisələrə inkarçıların qavraya bilmədikləri bir gözlə baxar və hadisələrin iç üzünü görə bilərlər. Onlar, çətinliyin, əziyyətin, maneələrin əsl mənasını bilən, həyatlarını bu sirrə görə yaşayan insanlardır. Bu səbəbdən, Allaha səmimi olaraq iman edən, yalnız Allahdan qorxub çəkinən, Allahı sevən, Allahı özünə dost tutan, insanlar arasında dostluğun, sevginin, tolerantlığın, ümidvar olmağın, nikbinliyin, həmrəyliyin, gözəl əxlaqın yayılması üçün səmimi-qəlbdən mübarizə aparan bir insanı, hər hansı bir pis insanın və ya fəsad arxasındakı birinin dayandıra bilməsi və ya əngəlləyə bilməsi qətiyyən mümkün deyil.

İnkarçılar bilməlidirlər ki, nə edirlərsə etsinlər, bütün güclərini də toplasalar, bir-birlərinə arxa da çıxsalar dağları yerindən sarsıdacaq qədər əhatəli hiylələr də qursalar, onlar möminlərə heç bir zərər verə bilməzlər. Hətta hər qurduqları hiylə, atdıqları hər böhtan, söylədikləri hər istehzalı söz möminlərin həm dünyadakı, həm də cənnətdəki məkanlarının daha da gözəlləşib zənginləşməsinə səbəb olar.

Bu sirri bilən möminlərə Allah Quranda belə müjdə verir:

**Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ. (Tövbə surəsi, 111-112)**

# ƏDƏBİYYAT


1) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On birinci Şua, Meyve Risalesi, səh. 193
2) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On birinci Şua, Meyve Risalesi, səh. 226
3) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyirmi altıncı Lema, səh. 260
4) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On dördüncü Şua, səh. 509-510
5) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, Tarihçe-i Hayat, səh. 428
6) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyirmi altıncı Lema, səh.264-265
7) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On dördüncü Şua, səh. 522-523
8) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyrmi altıncı Lema, səh.267
9) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, Şualar, səh. 502
10) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Şua, səh. 313-314
11) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Şua, səh.311-312
12) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Söz, səh. 150-151
13) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On dördüncü Şua, səh.481
14) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Söz, səh.150
15) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Şua, səh.296
16) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyirmi altıncı Lema, səh.267
17) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyrmi yeddinci Lema, səh.726
18) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Söz, səh.149
19) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyirmi altıncı Lema, səh.266
20) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyrmi altıncı Lema, səh.265
21) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Mektub, səh.46-47
22) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Mektub, səh.47
23) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyirmi altıncı Lema, səh.261-262
24) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Şua, səh. 306
25) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On üçüncü Söz, səh.153
26) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, On birinci Şua, səh. 201
27) Necip Fazil Kisakürek, Son Devrin Din Mazlumları, səh. 223
28) Necmettin Şahiner, Bilinmeyen Taraflarıyla Bediüzzaman Said Nursi, Kronolk Hayatı, Nesil Matbaacılık A.Ş., 13-cü nəşr, səh.315
29) Necmettin Şahiner, Son Şahitler Bediüzzaman Said Nursi’yi Anlatıyor, cild 2, səh.21
30) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyrmi altıncı Lema, səh.258

31)Bilinmeyen Taraflarıyla Bediüzzaman Said Nursi, səh. 89-95
32)Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı,Emirdağ Lahikası, səh.48
33)Bilinmeyen Taraflarıyla Bediüzzaman Said Nursi, səh.346
34)Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, Tarihçe-i Hayat, səh.451
35)Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, Kastamonu Lahikası, səh. 217
36)Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı, İyirmi altıncı Lema, səh. 265

**Onlar dedilər: “Sən pak və müqəddəssən!**

**Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən Bilənsən, Müdriksən!”**

**(Bəqərə surəsi, 32)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie*

*E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir.

Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir

şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə

ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil

etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə

çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor,

azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı

televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni

zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların,

universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək

qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz

saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

İnsanları yalnız Allaha qulluq etməyə və gözəl əxlaqlı olmağa çağıran səmimi müsəlmanlar üçün heç bir cinayətləri olmadığı halda bəzən yaşamaq məcburiyyətində buraxıldıqları həbsxanalar mənəvi baxımdan çox gözəl bir təhsil və nəfsi tərbiyə yeridir. Digər bir sözlə, möminlər üçün həbsxanalar mədrəsə hökmündədirlər.

Bu mədrəsələrin Yusif adıyla anılmalarının səbəbi isə, -Quranda bildirildiyi üzrə- Allaha imanı və gözəl əxlaqı ilə tanınan hz. Yusifin günahsız yerə həbs edilmiş olmasıdır. Hz. Yusif özünün günahsız olduğuna dair dəlillərin açıq-aşkar ortada olmasına baxmayaraq, Allahın dinini izah edən bir insan olduğu üçün böhtana uğramış, sonra həbsə atılmış və illərlə həbsdə qalmışdır. Bu hadisələr əsnasında başına hər gələnin Allahdan bir xeyir olduğunu bilmiş, həbsdə belə təbliğ vəzifəsinə davam edərək digər məhkumlara Allahın varlığını və gözəl əxlaqı izah etmiş, həbs həyatı boyunca əsla şikayət etməmişdir. Məhz onun bu rəftarı, özündən sonra gələn bütün möminlərə də gözəl bir nümunə olmuşdur.

Hz. Yusifdən başqa İmam-ı Azam, İmam-ı Ahmed İbn Hanbel və yaxın tariximizdən Bədiüzzaman Səid Nursi, Süleyman Hilmi Tunahan və Gönenli Mehmet Əfəndi kimi İslam böyükləri də müxtəlif böhtanlara məruz qalmış, saxta dəlillərlə əleyhlərinə hiylələr qurulmuş və bu böhtanlardan ötrü də həbslə cəzalandırılmışlar. Bu qiymətli İslam böyükləri də eynilə hz. Yusif kimi başlarına gələn sıxıntı və çətinliyi özləri üçün bir nemət bilmiş və axirətdəki qarşılığını düşünərək sevinmişlər. Həbs həyatındakı çətinliklərin özləri üçün mənəvi bir təhsil, bir növ inzivaya çəkilmə olduğunu düşünərək həbsdə deyil, Mədrəsə-i Yusifiyədə olduqlarını qəbul etmişlər.